04_27 IYUl-QARA.qxd 1/29/2026 10:14 PM Page 1

UNİKAL

№04 (2283) 30 yanvar 2026-cı il Qiyməti 50

Qurucusu: Asəf Rzayev www.unikal.az



# TƏBİB-in 4,2 milyon manatlıq müamması



Səh.5

## "Qarabağ söhbətini birdəfəlik bağlamalıyıq" - Paşinyan

*"Mən Azərbaycan Prezidentinin bir sıra qərarlarından məmnun olduğumu bildirmişəm. Taxıl və dizel yanacağı Azərbaycan ərazisindən Ermənistana gəlir və yollar açılır. Düşünmürəm ki, buna görə Azərbaycanı tənqid etməliyik". "Unikal" xəbər verir ki, bunu Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan jurnalistlərlə keçirdiyi brifinqdə bildirib. "Yeni il müraciətimdə dedim ki, Qarabağ bizim deyil, onun bizim olması barədə söhbətlər yersizdir. Bu, geosiyasi tələdəki kiminsə söhbətidir. Düşünürəm ki, bu söhbəti birdəfəlik bağlamalıyıq. Çünki Ermənistan və Azərbaycan Alma-Ata Bəyannaməsinə əsaslanaraq bir-birinin ərazi bütövlüyünü və suverenliyini, siyasi müstəqilliyini tanımaq barədə razılığa gəliblər və bu mövzu...*

Səh.14

## "Bəzi tibbi xidmətlərin ödənişini vətəndaşla dövlət arasında bölmək olar"



*Tibb elmləri doktoru, professor Adil Qeybulla "Unikal"a müsahibə verib. O, onkoloji xəstələrin özəl klinikalarda müalicə ala bilməsindən, onkoloji xəstələrin müayinə və müalicəsinin icbari tibbi sığorta hesabına qarşılanmasının mümkün olub-olmamasından, elektron reseptlərdən, rezidentlərin...*

Səh.4

## Azərbaycan diplomatik krizin qarşısını aldı - Terrora cəhdin təfərrüatları



*Dövlət Təhlükəsizliyi Xidməti yanvar ayının 27-də xarici ölkənin Azərbaycandakı səfirliyinə qarşı terror hücumu etməyə hazırlaşan şəxsləri həbs edib. Bu, dövlətin terrorla mübarizə sisteminin yüksək səviyyədə işlədiyini göstərir. Həmçinin məlum olub ki, sözügedən şəxslər İsrailin Bakıdakı səfirliyinin...*

Səh.9

## Pensiyaçılara şad xəbər: Gələn həftə artımların məbləği bilinəcək



*"Qanunvericiliyə görə pensiyalar ildə bir dəfə artır və bu da növbəti ilin yanvarında olur. Əmək pensiyalarının hər il indeksləşdirilməsi "Əmək pensiyaları haqqında" qanunun tələbidir. Bu, vətəndaşın qanunla müəyyənləşdirilmiş şəkildə haqq etdiyi məsələdir".*

Səh.12

04_27 IYUl-QARA.qxd 1/29/2026 8:35 PM Page 5



# Prezident onlara general rütbəsi verdi - SİYAHI



***Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələr verilib.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncamla Dövlət Komitəsinin aşağıdakı əməkdaşlarına ali xüsusi rütbələr verilib:

”gömrük xidməti general-polkovniki” ali xüsusi rütbəsi

Şahin Soltan oğlu Bağırov - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

”gömrük xidməti general-mayoru” ali xüsusi rütbəsi

Fuad Elxan oğlu Məmmədov - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Fuad Mikayıl oğlu Aslanov - Rəqəmsal İdarəetmə Baş İdarəsinin rəisi

Elmir Bahadur oğlu Ramazanov - Bakı Baş Gömrük İdarəsinin rəisi.

Digər sərəncamla gömrük orqanlarında səmərəli fəaliyyətinə görə Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşları təltif ediliblər:

3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə

Quliyev Bəhruz Faiq oğlu

Şirinov Natiq Telman oğlu

”Tərəqqi” medalı ilə

Alverdiyev Tariyel Mehman oğlu

Məmmədov Elşən Malik oğlu

# Bakı-Tbilisi-Qars dəmiryol xətti üzrə müqavilələr imzalandı

***29 yanvar tarixində Tbilisidə “Azərbaycan Dəmir Yolları” QSC-nin (ADY) və “Marabda-Kartsaxi Dəmir Yolu” MMC-nin törəmə şirkətlərinin birgə müəssisəsi olan “BTKI Railways” MMC ilə “Gürcüstan Dəmir Yolları” SC arasında Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti üzrə birgə müəssisənin tam fəaliyyətə başlamasının təmin edilməsi məqsədilə müvafiq müqavilələr imzalanıb.***

”Unikal” xəbər verir ki, müqavilələrdən biri Marabda-Axalkalaki dəmir yolu infrastrukturundan istifadəni, digəri isə Axalkalaki stansiyasında terminal xidmətlərinin göstərilməsini nəzərdə tutur.



İmzalanma mərasimində bildirilib ki, yeni razılaşmalar Orta Dəhlizin mühüm seqmenti olan BTQ üzrə əməliyyatların daha səmərəli təşkilinə və yükdaşıma həcmlərinin artırılmasına imkan verəcək.

Qeyd edək ki, ADY BTQ xəttinin Gürcüstandan keçən və mürəkkəb coğrafi relyefə malik 184 kilometrlik hissəsində təmir-bərpa və modernləşdirmə işlərini uğurla yekunlaşdırıb, nəticədə xəttin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb. Bu dəmir yolu xəttinin modernləşdirilməsinin əsas məqsədi Orta Dəhlizin rəqabət qabiliyyətini artırmaq və BTQ-ni dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirməkdir.

“BTKI Railways” MMC 2024-cü il avqustun 13-də yaradılıb. Birgə müəssisənin fəaliyyəti BTQ üzrə əməliyyatların səmərəli idarə olunması və yeni yüklərin cəlbi, regionda strateji nəqliyyat əlaqələrinin gücləndirilməsi və Orta Dəhlizin potensialının artırılması kimi istiqamətləri əhatə edir.

# Bu qurum fövqəladə vəziyyətdə rabitə müəssisələrini birbaşa idarə edəcək

***Nazirlər kabineti 15 fevral 2012-ci il tarixli qərarı ilə təsdiqlənmiş ”Fövqəladə vəziyyət şəraitində rabitədən istifadə üçün xüsusi Qaydalar”da dəyişiklik edib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, rabitə müəssisələri və poçt rabitəsinin milli operatoru öz funksiyalarını ”Fövqəladə vəziyyət şəraitində rabitədən istifadə üçün xüsusi Qaydalar”a uyğun yerinə yetirmədikdə, fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə belə rabitə müəssisələrinin ümumistifadəli telekommunikasiya şəbəkələri və poçt rabitəsinin milli operatorunun obyektləri üzərində birbaşa idarəetmə müvəqqəti olaraq Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnformasiya



və Kommunikasiya Texnologiyaları Agentliyi vasitəsilə həyata keçirilə bilər.

# Tərtərin prokuroru işdən çıxarıldı - Bu vəzifəyə təyin edildi



***Tərtər rayon prokuroru Əli Qurbanov vəzifəsindən azad edilib.***

“Qafqazinfo”nun əldə etdiyi məlumata görə, bu barədə baş prokuror Kamran Əliyev Əmr imzalayıb.

Baş prokurorun digər Əmri ilə Əli Qurbanov Tərtərin hərbi prokuroru təyin edilib.

Qeyd edək ki, Tərtər rayon prokurorunun səlahiyyət müddəti bu gün başa çatıb.

# Palata Gənclər və İdman Nazirliyində nöqsanlar aşkarladı

***Hesablama Palatası Gənclər və İdman Nazirliyinin idmanın inkişafı istiqamətində fəaliyyətinin auditini aparıb.***

”Unikal” Palataya istinadən xəbər verir ki, auditin nəticələri qurumun bu günkü Kollegiya iclasında təqdim edilib.

İclasda aşkar edilmiş nöqsanların aradan qaldırılması məqsədilə audit olunan qurum tərəfindən zəruri tədbirlərin görülməsi barədə qərar qəbul olunub. İclasın ikinci hissəsində 2026-cı ilin İş Planına əsasən bir nəzarət tədbirinin başlanılması ilə bağlı proqram müzakirə edilərək təsdiqlənib.


## ELAN

3-saylı Xüsusi Təyinatlı Mənzil Kommunal Təsərrüfatı Birliyinə (VÖEN 1901471451) aid qeyri-yaşayış sahələrinin istismar haqqı üçün (forma № 6MQ) GJG seriyalı 005315 və 005316 nömrəli mədaxil qəbzləri itdiyi üçün etibarsız sayılır.


# Sahibə Qafarova Oman Sultanlığı Dövlət Şurasının sədri ilə görüşdü

***Milli Məclisin sədri Sahibə Qafarova Omana rəsmi səfəri çərçivəsində Oman Sultanlığı Dövlət Şurasının sədri Şeyx Əbdülməlik Al Xəlili ilə görüşüb.***

”Unikal” xəbər verir ki, görüşdə ölkələr arasında dostluq, qarşılıqlı hörmət və anlayışa əsaslanan ikitərəfli münasibətlərin mövcudluğu vurğulanıb.

Qeyd edilib ki, xalqlar arasında mövcud tarixi, dini və mədəni oxşarlıqlar ölkələrimiz arasında münasibətlərin inkişafı üçün geniş imkanlar yaradır.

Söhbət zamanı iki ölkənin qanunverici orqanları arasındakı əlaqələrə dair fikir mübadiləsi aparılıb və parlamentlər arasındakı qarşılıqlı fəaliyyətin münasibətlərin daha da inkişafına töhfə verdiyi vurğulanıb.



Tərəflər son illərdə parlamentlər səviyyəsində əlaqələrin dərinləşməsindən məmnunluq ifadə ediblər. Xüsusilə parlament sədrləri səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər və müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində təmasların gücləndirilməsi əlaqələrimizin genişlənməsində mühüm amil kimi qiymətləndirilib.

Oman Sultanlığı Dövlət Şurasının sədri Şeyx Əbdülməlik Al Xəlili Milli Məclis sədrinin Omana ilk rəsmi səfərinin iki tərəfli əlaqələrin daha da inkişafına təkan verəcəyinə inamını bildirib.

Vurğulanıb ki, parlamentlər həm ikitərəfli, həm də beynəlxalq parlament platformalarında uğurlu əməkdaşlığa malikdir. O cümlədən Parlamentlərarası İttifaq, Asiya Parlament Assambleyası və İslam Əməkdaşlıq Təşkilatı kimi qurumlarda qarşılıqlı dəstək nümayiş olunur.

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulma Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğulayaraq Oman parlamentinin təşkilatda fəal iştirakından məmnunluğunu ifadə edib.


Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000


# Prezident bu generalları təltif etdi

***Xəbər verdiyimiz kimi, gömrük orqanlarında səmərəli fəaliyyətinə görə Dövlət Gömrük Komitəsinin əməkdaşları təltif ediliblər.***

”Unikal”ın məlumatına görə, Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru Bəhruz Quliyev və DGK sədrinin müavini, gömrük xidməti general-mayoru Natiq Şirinov təltif olunublar.

Onların hər ikisi 3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif ediliblər.

04_27 IYUI-QARA.qxd 1/29/2026 10:13 PM Page 6



# Baş nazirdən ciddi hesabat blankları ilə bağlı qərar

***Nazirlər Kabineti 27 avqust 2004-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, ciddi hesabat blankları (Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılan Hökumət Ödəniş Portalının, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki İnnovasiyalar Mərkəzinin "ASAN ödəniş" informasiya sisteminin ödəniş barədə və "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin strukturuna daxil olan "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müxtəlif Yığımlar üzrə Mərkəzləşdiril-



miş İnformasiya Sisteminin, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Sərnişin Daşımaları üzrə Avtomatlaşdırılmış İdarəetmə Sisteminin, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tətbiq edilən "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışları istisna olmaqla) ciddi hesabat blanklarının hazırlanması fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslər tərəfindən sifarişçilərin vəsaiti hesabına çap edilir.

Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Hökumət Ödəniş Portalının çıxarışlarının uçotu qaydaları Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən, "ASAN ödəniş" informasiya sisteminin ödəniş barədə çıxarışlarının uçotu qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müxtəlif Yığımlar üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin, "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Sərnişin Daşımaları üzrə Avtomatlaşdırılmış İdarəetmə Sisteminin çıxarışlarının uçotu qaydaları Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilir.

# Tahir Budaqov Vyetnamda siyasi partiyalarla bağlı tədbirdə iştirak etdi

***Azərbaycan Respublikasının Vyetnamdakı səfirliyinin təşkilatçılığı ilə Hanoyda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Vyetnamın dövlət və hökumət rəsmiləri, diplomatik missiya təmsilçiləri, Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının üzvləri, Azərbaycanda təhsil almış vyetnamlı məzunlar, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycanın Vyetnamdakı fövqəladə və səlahiyyətli səfiri Şövqi Mehdizadə iki ölkə arasında tarixi köklərə əsaslanan səmimi dostluq münasibətlərinin mövcud olduğunu diqqətə çatdırıb. O, 1959-cu ildə Vyetnam xalqının öndəri Ho Şi Minin Azərbaycana, 1983-cü ildə isə Ümummilli Lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Vyetnama səfərlərinin xalqlarımız arasında münasibətlərin və ölkələrarası əməkdaşlıq əlaqələrinin qurulmasında müstəsna rol oynadığını deyib. Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın ötən ilin may ayında Azərbaycana səfərini xatırladan səfir iki ölkə arasında münasibətlərin uğurla inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini deyib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Kommunist Partiyasının (VKP) 14-cü qurultayının uğurla baş tutması münasibətilə təbriklərini çatdırıb.

Tahir Budaqov qeyd edib ki, müdrik dövlət xadimi Heydər Əliyev istər SSRİ dönəmində, istərsə də Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkəmizə rəhbərlik etdiyi zaman Vyetnam ilə münasibətlərin inkişafına böyük önəm verib. Onun sözlərinə görə, Heydər Əliyev siyasətini müasir çağırışlara uyğun zənginləşdirərək uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Vyetnamla əməkdaşlığın dərinləşdirilməsinə xüsusi diqqət yetirir: "İki ölkənin fəal siyasi dialoqu tərəflər arasında çoxşaxəli işbirliyinin genişlənməsini şərtləndirir. Bu gün etibarlı strateji tərəfdaşlar olan Azərbaycan ilə Vyetnam qlobal müstəvidə bir-birinin maraqlarının müdafiəsinə böyük əhəmiyyət verirlər".

YAP Sədrinin müavini strateji tərəfdaşlıq münasibətlərinin irəliyə aparılması üçün ayrı-ayrı qurumların üzərinə mühüm vəzifələrin düşdüyünü, bu kontekstdə sıx əməkdaşlığın vacibliyini vurğulayıb.

Tahir Budaqov daimi təmasların istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafına mühüm töhfələr verdiyini söyləyib. Qarşılıqlı səfərlərin önəminə diqqəti cəlb edən YAP Sədrinin müavini Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasındakı əlaqələrin genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini deyib: "2023-cü ildə YAP ilə VKP arasında imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin icrası istər partiyalarımız, istərsə də ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir".

Tahir Budaqov milli maraqlara əsaslanan birgə fəaliyyət nəticəsində yeni nailiyyətlərin əldə olunacağına əminliyini ifadə edib.

Vyetnam Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hong inkişaf yolunda əmin addımlarla irəliləyən hər iki ölkənin dostluq və tərəfda-



şlıq münasibətlərini birgə səylərlə daha da gücləndirmək əzmində olduqlarını vurğulayıb. O, Azərbaycan ilə Vyetnamın müxtəlif sahələrdə işbirliyini genişləndirməsinin vacibliyinə toxunaraq statistika qurumları arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işlərdən bəhs edib. Nguyen Thi Hong 2024-cü ilin dekabr ayında Bakıda imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələrək sistemli fəaliyyətin həyata keçirildiyini söyləyib. O, bir neçə gün əvvəl statistika sahəsində 2026-2028-ci illər üçün İş Planının imzalanmasının qurumlararası əlaqələri daha da dərinləşdirəcəyinə əminliyini bildirib.

Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının sədri Dang The Vin Azərbaycan-Vyetnam münasibətlərinin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu söyləyib. O, vaxtilə Azərbaycanda təhsil almış vyetnamlı gənclərin bir çoxunun Vyetnamın ictimai-siyasi həyatında fəal rol oynadıqlarını, iki xalq arasında əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfələr verdiklərini bildirib.





# Mərkəzi Banka yeni baş direktor gəldi - Dosye

***Azərbaycan Mərkəzi Bankında yeni təyinat olub.***

"Unikal" xəbər verir ki, Mərkəzi Bankın baş direktoru Rəna Məlikova AMB sədrinin müşaviri təyin edilib. Onun yerinə Tural Feyzullayev Mərkəzi Bankın baş direktoru vəzifəsinə gətirilib.

36 yaşlı T.Feyzullayev Ağcabədi rayonunda anadan olub. O, 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını "Hüquqşünaslıq" ixtisası üzrə bakalavr, 2013-cü ildə Fransanın Tuluz Universitetini "Beynəlxalq və Avropa hüququ", 2014-cü ildə isə həmin universiteti "Beynəlxalq biznes hüququ" ixtisasları üzrə magistr dərəcələri ilə bitirib.

Əmək fəaliyyətinə 2011-ci ildə "Azərsun Holding" MMC-də Araşdırma departamentində araşdırma mütəxəssisi vəzifəsi ilə başlayıb. 2015-2016-cı illərdə Mərkəzi Bankın Hüquq departamentinin Bank nəzarətinin hüquqi təminatı şöbəsində hüquq məsləhətçisi vəzifəsində işləyib. 2016-2019-cu illərdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasında hüquqşünas, aparıcı hüquqşünas, böyük hüquqşünas, Hüquqi təminat idarəsinin rəisi vəzifələrində işləyib.

2018-ci ilin noyabr ayında Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılmasına verdiyi töhfəyə və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif edilib. 2020-2021-ci illərdə Mərkəzi Bankın Hüquq departamentində direktor müavini - Maliyyə bazarlarının hüquqi təminatı şöbəsinin rəisi vəzifəsində çalışıb. 2021-2022-ci illərdə "AccessBank" QSC-də Hüquq və komplayens departamentinin rəhbəri vəzifəsində işləyib.

2021-ci ildə Birinci "Yüksəliş" müsabiqəsinin qalibi olub. 2022-2025-ci illərdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquqi təminat və təhlil sektorunun müdiri vəzifəsində işləyib.

# Peşə Təhsil Mərkəzində yeni təyinat

***Bərdə Dövlət Peşə Təhsil Mərkəzində yeni təyinat olub.***

"Unikal" xəbər verir ki, bu barədə Peşə Təhsili üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, Rəna Həsənova Bərdə Dövlət Peşə Təhsil Mərkəzində tədris və təlim işləri üzrə direktor müavini vəzifəsinə təyin edilib.

Təyinata qədər Bərdə şəhər Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseydə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışıb.

Qeyd edə ki, R.Həsənova 2004-cü ildə "Əməkdar müəllim" fəxri adına layiq görülüb.



# Mikayıl Cabbarov Sezar Çöçelli ilə müzakirə apardı

***İqtisadiyyat naziri Mikayıl Cabbarov "Gabala Beverage Company" şirkətinin təsisçisi Sezar Çöçelli ilə regionlara investisiyaların cəlb edilməsi müzakirə olunub.***

"Unikal" xəbər verir ki, bu barədə nazir sosial şəbəkə hesabında qeyd edib.

O qeyd edib ki, görüşdə şirkətlə əməkdaşlıq məsələləri və biznes təşəbbüsləri müzakirə edilib: "Qəbələdə alkoqollu və alkoqolsuz içkilərin istehsalı zavodunun tikintisi üzrə görülən işləri, layihənin məşğulluğun təşviqi, rəqabətqabiliyyətli məhsulların istehsalı və idxaldan asılılığın azalması baxımından perspektivlərini qeyd etdik".

# Əhəd Abıyevdən qardaşının ölüm xəbərinə reaksiya



***Daşkəsən rayonunun sabiq icra başçısı, keçmiş deputat Əhəd Abıyevin qardaşı Nadir Abıyevin vəfat etməsi ilə bağlı məlumat yayılıb.***

Əhəd Abıyev "Unikal"a açıqlamasında bildirib ki, qardaşı dünyasını dəyişməyib:

"Qardaşım Nadir xərçəng xəstəliyindən əziyyət çəkir. Bir müddət əvvəl Türkiyəyə aparmışdıq. Təxminən bir ay orada müalicə aldı.

Daha sonra Vətənə qayıtdı. Hazırda Bakı Sağlamlıq Mərkəzində reanimasiyadadır. Vəfat etməyib", - deyə o əlavə edib.

Qeyd edək ki, Nadir Abıyev 2006-2020-ci illərdə Masallı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində çalışıb.

***Murad İbrahimli***

# ADY sədri gürcü həmkarı ilə görüşdü

***AZCON Holding şirkətlərindən olan "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov 29 yanvar tarixində Tbilisidə "Gürcüstan Dəmir Yolları" SC-nin baş direktoru Laşa Abaşidze və Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Tamara İoseliani ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüş zamanı iki ölkə arasında dəmir yolu nəqliyyatı sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

Gürcüstan və Azərbaycan arasında Orta Dəhlizin rəqabət qabiliyyətinin artırılması və əlavə yüklərin cəlb edilməsi istiqamətində əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti təhvil-təslimi üzrə yekun aktın imzalanması və bu xətlə yükdaşımaların həcminin artırılması məsələlərinə xüsusi diqqət ayrılıb.

Qeyd edək ki, ADY BTQ xəttinin Gürcüstandan keçən və mürəkkəb coğrafi relyefə malik 184 kilometrlik hissəsində təmir-bərpa və modernləşdirmə işlərini uğurla yekunlaşdırıb, nəticədə xəttin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb. Bu dəmir yolu xəttinin modernləşdirilməsinin əsas məqsədi Orta Dəhlizin rəqabətqabiliyyətini artırmaq və BTQ-ni dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirməkdir.

# "Bəzi tibbi xidmətlərin ödənişini vətəndaşla dövlət arasında bölmək olar"

## Adil Qeybulla: "Mülkiyyət formasından asılı olmayaraq heç bir klinikanın onkoloji xəstəlikləri tam müayinə və müalicə etmək imkanı yoxdur"

***Tibb elmləri doktoru, professor Adil Qeybulla "Unikal"a müsahibə verib. O, onkoloji xəstələrin özəl klinikalarda müalicə ala bilməsindən, onkoloji xəstələrin müayinə və müalicəsinin icbari tibbi sığorta hesabına qarşılanmasının mümkün olub-olmamasından, elektron reseptlərdən, rezidentlərin maaşlarından və dərmanların qiymətlərinin baha olmasından danışıb.***

***-Adil müəllim, "Onkoloji yardım haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, onkoloji xəstələr özəl klinikalarda müalicə ala biləcəklər. Bu dəyişiklik adıçəkilən xəstəlikdən əziyyət çəkənlər üçün hansı əlavə imkanlar yaradacaq?***



-Mülkiyyət formasından asılı olmayaraq heç bir klinikanın onkoloji xəstəlikləri tam müayinə və müalicə etmək imkanı yoxdur. Çünki kombinə olunmuş müalicənin müxtəlif mərhələlərində, diaqnostikada tətbiq olunan üsullar var. Məsələn, radioterapiya (şüa müalicəsi), kompüter tomoqrafiyası, sintiqrafiya hələlik Milli Onkologiya Mərkəzində mümkündür. İndi özəl və dövlət klinikalarında nə etmək olar? Onkoloji xəstələrə təcili təxirəsalınmaz yardım zamanı, yeni qanamalar zamanı ilkin yardım, müxtəlif drenajların qoyulması və ya xaric edilməsi hallarında özəl klinikaların xidmətindən istifadə etmək olar. Onkoloji xəstəliklər metastaz verir, orqan və toxumaların strukturunu dağıdır. Bu zaman müxtəlif situasiyalar yaranır. Və yaxud polikimyəvi terapiya kursları və s. özəl klinikalarda aparıla bilər. Bütövlükdə, bu xəstəliklərin spesifikasına tam cavab verən klinika hələlik Milli Onkologiya Mərkəzidir.

***-Uzun müddətdir onkoloji xəstələrin müayinə və müalicəsinin icbari tibbi sığorta hesabına qarşılanması müzakirə olunur. Bu xəstəliyin müalicəsinin icbari tibbi sığortaya əlavə edilməsi onkoloji xəstəlikdən əziyyət çəkənlərin xərclərinin azalmasına kömək edə bilərmi?***

-Bəli, bu belədir. Amma reallıqlar nəzərə alınmalıdır. Onkoloji xəstəliklərin müasir müalicəsi getdikcə təkmilləşir. Polikimyəvi terapiya öz yerini yavaş-yavaş immunoterapiyaya, hədəf terapiyasına verir. Belə situasiyada həmin preparatların qiymətləri də yetərincə bahadır. O baxımdan icbari tibbi sığortanın indiki rəqəmi ilə bu xidmətləri total şəkildə əhatə etmək real görünmür. Hər halda bəzi xidmətlərin vətəndaşla dövlət arasında bölünməsindən danışmaq olar.

***-Elektron resept məsələsi var idi. Hazırda həkimlər bundan istifadə edirlərmi və elektron reseptin tətbiqi vətəndaşlar üçün hansı üstünlüklər yaradır?***

-Elketron və ya kağız resept olsun. Söhbət ondan gedir ki, yazılan reseptlərin sistemdə fiksə olunması dərmanların dövriyyəsinə nəzarət baxımından yaxşı olardı. Amma sistem yoxdur. Əslində klinik protokollar ortada olsa, o məsələlərin önəmi qalmır.

***-Rezidentlərin maaşlarının az olması da hər zaman qaldırılan məsələlərdəndir. Onların maaşlarının artırılması üçün hansı addımların atılmasına ehtiyac var?***

-İcbari tibbi sığorta tətbiq olunmağa başlayandan demişəm ki, icbari tibbi sığortanı xarakterizə edən əsas cəhətlərdən biri elektron növbəlilik, digəri isə həkimlərin maaş sistemidir. Təəssüflər olsun ki, bunların heç biri hələ öz həllini tapmayıb. Bunun üçün müəyyən tariflər müəyyənləşməlidir ki, rezident həkimdən başlayaraq uzman və daha yüksək həkimlərə doğru müəyyən maaşlar təyin edilsin. Ondan sonra məsələlər öz həllini tapmış olacaq. Dünyanın hər yerində həkimlər konkret maaş alırlar. Bonus və s-lərin hamısı əlavə neqativliyə şərait yaradır.

***-Ölkəmizdə dərmanların qiymətinin yüksək olması vətəndaşları narahat edən məsələlərdəndir. Qiymətlərin baha olmasının səbəblərindən biri kimi ƏDV-nin tətbiq olunması qeyd edilir. Dərmanların qiymətini tənzimləmək üçün onları ƏDV-dən azad etmək mümkün olarmı?***

-Düşünürəm ki, dərmanların keyfiyyət parametrlərini bir kənara qoysaq, onların qiyməti insanların gəlirlərinə görə bahadır. Bunun çıxış yolu ondan ibarətdir ki, icbari tibbi sığorta çərçivəsində dövriyyədə olacaq və xəstələrə veriləcək dərmanların adları məlum olmalı, onların dövriyyəsi qaydaqanunla olmalıdır ki, vətəndaşlar bundan pulsuz istifadə edə bilsinlər. Yaxşı olardı ki, bütün dərmanlar icbari tibbi sığortaya daxil olsun. O halda mümkündür ki, icbari tibbi sığorta tibbin bütün sahələrini əhatə etsin. Hələlik bu real deyil. Amma dərmanların ölkəyə fasiləsiz idxalını təmin etmək, qıtlıq yaratmamaq, bir kimyəvi tərkibdən 4-5 nümunədən başqa artığını qoymamaq, yeni, bir də görürsən çox satılan dərman 100 adda ölkəyə daxil olur. Bunlar lüzumsuzdur. Yaxşı olardı ki, daha çox tanınmış, keyfiyyətinə əminlik olan firmaların, o cümlədən qardaş Türkiyədən dərmanları alaq. Hər kimyəvi tərkibdən 4-5 nümunə yetərlidir. Belə olan təqdirdə biz bu məsələni daha yaxşı tənzimləyə bilərik.

***Anar Kəlbiyev***

# TƏBİB-in 4,2 milyon manatlıq müəmması

## Özəl klinikalara göndərişsz köçürülən pulların taleyi necə olacaq?

***Hesablama Palatasının İcbari tibbi sığorta fondunun 2023-2024-cü illər üçün gəlir və xərclərinin icrası ilə bağlı auditi zamanı ortaya çıxarılan nöqsanların bir çoxu ilə bağlı müəmmalı vəziyyət yaranıb. Söhbət ilk növbədə TƏBİB-in tabeliyindəki tibb müəssisələrinin maliyyələşmə mexanizminin sığorta prinsiplərinə uyğun olmamasından gedir. Bunu "Unikal"a açıqlamasında məlumatlı mənbə deyib.***

Xatırladaq ki, sözügedən illərdə tibb müəssisəsinə vətəndaşlar tərəfindən müayinə və müalicə üçün birbaşa müraciət olunduğu və müvafiq göndəriş verilmədiyi halda Agentlik tərəfindən vəsait ödənildiyi müəyyən edilib.

Auditin nəticələrinə əsasən göndəriş olmadan özəl tibb müəssisələrinə 4.2 milyon manat vəsait köçürülüb. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) vətəndaşlar tərəfindən müayinə və müalicə üçün birbaşa müraciət olunduğu və müvafiq göndəriş verilmədiyi halda 14 özəl tibb müəssisəsinə 2 ildə cəmi 4273,6 min manat vəsait ödəyib.

Eləcə də icbari tibbi sığorta haqqının adambaşına düşən məbləğinin məhz hansı xərcləri əhatə etməklə müəyyənləşdirilməsi mexanizminin hər hansı hüquqi aktla və ya metodoloji sənədlə əsaslandırılması ilə bağlı audit çərçivəsində məlumat təqdim olunmayıb. İcbari tibbi sığorta fondunun sifarişi ilə keçirilən satınalmaların planlanmasında, satınalma prosedurlarında və satınalmaların il daxilində rüblər üzrə bölgüsündə də nöqsanlara yol verilib. İcbari tibbi sığorta çərçivəsində dərmanlar da əhaliyə vaxtında çatdırılmayıb.

Bir sözlə, TƏBİB, həmçinin, İTSDA öz fəaliyyətində ciddi nöqsanlara yol verib, bu nöqsanlar dövlət büdcəsinə iri məbləğlərlə müşahidə olunan ziyan vurub. Ən qəribəsi (eyni zamanda maraqlısı!) odur ki, adıçəkilən qurumlar sözügedən ziyanın geri ödənilməsi istiqamətində hər hansı konkret addım atmayıb.

"Toplanmış audit sübutları ilə, eləcə də bir neçə tibb müəssisəsində aparılan yoxlamalar TƏBİB-in tabeliyində olan tibb müəssisələrinin maliyyələşmə mexanizminin sığorta prinsiplərinə uyğun təşkil edilmədiyini aşkara çıxarıb. Beləliklə, aydın olub ki, 2023-2024-cü illərdə cərrahiyə əməliyyatların, xüsusilə dəyəri daha yüksək olan əməliyyatların əsas hissəsi, o cümlədən dəyəri 5000 manat və ondan artıq olan əməliyyatların 90%-dən çoxu özəl tibb müəssisələrində icra edilib" - mövzu ilə bağlı ölkə mediası yazıb.

Vurğulanıb ki, adıçəkilən Agentliklə özəl tibb müəssisələri arasında bağlanılmış müqaviləyə əsasən tibb müəssisəsi göndəriş vərəqəsi olduğu hallarda sığortaolunanlara Xidmətlər Zərfində nəzərdə tutulmuş tibbi xidmətləri göstərmək hüququna malikdir. Audit olunan illərdə tibb müəssisəsinə vətəndaşlar tərəfindən müayinə və müalicə üçün birbaşa müraciət olunduğu və müvafiq göndəriş verilmədiyi halda Agentlik 14 sayda tibb müəssisəsinə 2 ildə 4 milyon 273,6 min manat vəsait ödəyib. "Maraqlıdır, göndəriş verilmədiyi halda, bu qədər vəsait niyə və hansı əsasla ayrılıb?" - "Bakupost" haqlı olaraq qeyd edib.



Bu arada "Teleqraf"ın məlumatına görə, Azərbaycan qanunvericiliyinə əsasən, vətəndaşların əmək haqqından icbari tibbi sığorta haqqı tutulur. Bu vəsait dövlət büdcəsinin hədiyyəsi deyil, vətəndaşın alın təri ilə qazandığı və xidmət almaq üçün əvvəlcədən ödədiyi haqqıdır. Yəni vətəndaş burada sadəcə "yardım alan" deyil, həm də xidmətin haqqını əvvəlcədən ödəmiş müştəridir. Müştərinin isə xidmət təminatçısını seçmək hüququnun olması bazar iqtisadiyyatının və istehlakçı hüquqlarının təməl prinsipidir. Hazırkı modeldə İTS Agentliyi və TƏBİB əsasən dövlət xəstəxanalarını maliyyələşdirir. Yəni vəsaitlərin özəl sektora axmasının qarşısını almaq üçün "qapıları bağlayır".

Sığorta haqqını ödəyən vətəndaşa deyilir ki, "Sən pulu ödə, amma həkimi biz seçəcəyik". Əgər vətəndaş özəl klinikadakı həkimə güvənirsə, İTS ona bu imkanı birbaşa vermir. Bu, dolayısı ilə rəqabət mühitinin pozulması kimi dəyərləndirilə bilər. Çünki dövlət resursu (sığorta fondu) vasitəsilə dövlət xəstəxanalarına süni üstünlük verilir, özəl sektor isə kənarda qalır.

Hüquqi olaraq, tibbi xəta zamanı məsuliyyəti həkim və ya tibb müəssisəsi daşıyır. Lakin mənəvi və inzibati baxımdan, əgər sistem vətəndaşa alternativ buraxmırsa, deməli, sistemin keyfiyyətinə də dövlət birbaşa zəmanət verməlidir. Hazırda vətəndaşların narazılığı ondan qaynaqlanır ki, seçim imkanı da, keyfiyyətə zəmanət də yoxdur.

Sadalananlar fonunda görünən odur ki, TƏBİB və İTSDA-nın ciddi şəffaflıq problem var; hər iki qurumun xətti ilə xərclənən dövlət vəsaitlərinin hesabatlılığı ciddi şübhə altındadır. Ən əsası, haqqında danışılan qurumlarla özəl klinikalar arasında kifayət qədər şübhəli münasibətlər hökm sürür və sözügedən münasibətlərin gerçək detallarının ortaya çıxarılması qaçılmazdır. Hesablama Palatasının auditi də göstərir ki, haqqında danışılan detallar heç də sağlam gedişatdan xəbər vermir...

Mövzunun aktuallığını nəzərə alıb TƏBİB və İTSDA-nın müəmmalı göndərişləri, ən əsası da müəyyən özəl klinikalarla qaranlıq əlaqələrə dair çoxsaylı iddialar barədə araşdırmalarımızı davam etdirəcəyik. Bizi izləyin...

***Sənan Mirzə***

# Fuad Muradov diaspor rəhbərini təltif etdi



***Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Ukrayna Azərbaycanlıları Konqresinin İvano-Frankovsk vilayəti diaspor təşkilatının rəhbəri Mətləb Nəcəfovu qəbul edib.***

"Unikal" xəbər verir ki, komitə sədri xaricdəki Azərbaycan icmalarının, soydaşlarımızın Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqətində olduğunu vurğulayıb.

Soydaşlarımızın yerli cəmiyyətə sıx inteqrasiyasını, Azərbaycan həqiqətlərinin təbliği, zəngin mədəni irsimizin və mədəniyyətimizin tanıdılması istiqamətindəki fəallığını yüksək qiymətləndirib. Ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafında diasporun əhəmiyyətli rol oynadığını qeyd edib və gələcək fəaliyyətlə bağlı tövsiyələrini nəzərə çatdırıb.

Sonra Mətləb Nəcəfova "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı təqdim edilib.

Soydaşımız fəaliyyətinə verilən yüksək qiymətə görə Azərbaycan dövlətinə dərin minnətdarlığını bildirib. O, gələcəkdə də ölkələr arasında ikitərəfli münasibətlərin inkişafı, diasporumuzun fəaliyyətinin daha mütəşəkkil olması naminə səylərini əsirgəməyəcəyini söyləyib. Məlumat üçün qeyd edək ki, Mətləb Nəcəfov 2000-ci ildən Ukrayna Azərbaycanlıları Konqresinin İvano-Frankovsk vilayəti diaspor təşkilatının rəhbəridir. O, Rusiya-Ukrayna münaqişəsi dövründə bir çox soydaşlarımıza yardım edib.

# Elçin Quliyev generalı yüksək vəzifəyə təyin etdi

***Dövlət Sərhəd Xidmətində (DSX) yüksək vəzifələrə yeni təyinatlar olub.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bununla bağlı müvafiq əmrlər imzalanıb.

Vəzifədə irəli çəkilənlərdən biri də general-mayor Azad Abdullayevdir. General DSX-nin Sərhəd Qoşunları Komandanlığının qərargah rəisi təyin edilib.

"Azərbaycan bayrağı" ordeni ilə təltif edilmiş A. Abdullayev bu təyinata qədər diviziya komandiri kimi xidmət göstərib.

# General yanvar çağırışının gedişatını müzakirə etdi

***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatında müddətli həqiqi hərbi xidmətə yanvar çağırışının gedişatı ilə bağlı Mərkəzi Çağırış Komissiyasının iclası keçirilib.***

"Unikal" xəbər verir k, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimovun sədrliyi ilə keçirilən iclasda Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamının icra vəziyyəti müzakirə olunub.

Dövlət Xidməti tərəfindən 2026-cı ilin yanvar çağırışının uğurla icra edilməsi və Silahlı Qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə keyfiyyətlə komplektləşdirilməsi məqsədilə zəruri işlərin görüldüyü diqqətə çatdırılıb.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq Qərarı ilə yaradılmış Mərkəzi Çağırış Komissiyası vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması ilə bağlı rayon (şəhər) çağırış komissiyalarına rəhbərlik və onların fəaliyyətinə nəzarəti həyata keçirir. Mərkəzi Çağırış Komissiyasında 16 dövlət qurumu təmsil olunur. İclasın sonunda gündəlikdə olan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

04_27 IYUI-QARA.qxd 1/29/2026 8:35 PM Page 9






## AQTA-nın adından istifadə edən şirkətlərə xəbərdarlıq edildi

***Son dövrlər Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) daxil olan müraciətlər və aparılan nəzarət tədbirləri zamanı müəyyən edilib ki, bəzi dezinfeksiya xidməti göstərən özəl şirkətlər tərəfindən Agentliyin adından sui-istifadə hallarına yol verilir.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, sözügedən şirkətlərin nümayəndələri qida sahəsində fəaliyyət göstərən obyektlərə daxil olaraq özlərini Agentliyin əməkdaşı kimi təqdim edərək, dezinfeksiya xidmətləri ilə bağlı müqavilə bağlamağı təklif edirlər. Bu xidmətlərdən imtina edildiyi halda isə obyektlərdə nəzarət tədbirlərinin aparılacağı, barələrində ciddi tədbirlərin görüləcəyi ilə bağlı əsassız iddialar irəli sürürlər.

AQTA bildirir ki, Agentlik dezinfeksiya xidməti göstərən qurum deyil. AQTA-nın hər hansı dezinfeksiya xidməti həyata keçirən şirkəti mövcud deyildir. Dezinfeksiya xidmətləri göstərən şəxslər lisenziya əsasında fəaliyyət göstərən müstəqil sahibkarlıq subyektləridir.

Qeyd edək ki, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən, qida obyektlərinin sahibləri öz müəssisələrində mütəmadi olaraq dezinfeksiya tədbirləri həyata keçirməli və bu tədbirlərin icrasını təsdiq edən müvafiq sənədləri saxlamalıdırlar. Agentlik isə yalnız bu tələblərə əməl olunmasına nəzarəti həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

AQTA sahibkarları diqqətli olmağa çağırır və bu kimi hallarla rastlaşdıqları təqdirdə, Agentliyin adından sui-istifadə edən şəxslər və ya şirkətlər barədə "1003-Çağrı Mərkəzi"nə məlumat vermələrini xahiş edir. Eyni zamanda, Agentliyin adından sui-istifadə edən dezinfeksiya şirkətləri belə hallara təkrar yol verəcəyi təqdirdə barələrində zəruri tədbirlərin görülməsi üçün hüquq-mühafizə orqanlarına müraciət olunacaqdır.

## İmişlidə direktor şagirdi döyüb? - Rəsmi açıqlama

***İmişli rayon Hacalmuradlı kənd Q.Tarverdiyev adına tam orta məktəbin direktoru Ruslan İbayevin şagirdi döydüyü iddia olunub.***

"Unikal" xəbər verir ki, bu barədə sosial şəbəkədə paylaşım edilib.

Məsələ ilə bağlı Mil-Muğan Regional Təhsil İdarəsindən bildirilib ki, sosial mediada paylaşılan və yeniyetməyə qarşı uyğunsuz davranışın əks olunduğu görüntülərlə bağlı araşdırma aparılır: "Hadisədə iştirak edən şəxslərin kimliyini və görüntünün nə zaman çəkildiyini dəqiq müəyyən etmək üçün araşdırma aparılır. Şagirdi vuran şəxsin İmişli rayonu Hacıalmuradlı kənd tam orta ümumtəhsil məktəbinin direktoru olması ilə bağlı yayılan iddiaların həqiqəti əks etdirib-etdirmədiyi nəzarətə götürülüb. Yayılan görüntü ilə bağlı aparılan araşdırmanın gedişində hadisənin bütün detalları dəqiqləşdiriləcək və ictimaiyyətə məlumat veriləcək".

# Azərbaycandakı hotellər "batır"

## Ötən il yerlərin 75 faizdən çoxu boş qalıb, gəlirlər kəskin azalıb - Şok rəqəmlər!

***2025-ci ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri 2024-cü illə müqayisədə 5,9 faiz azalaraq 653 milyon manat olub. 2025-ci ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin birdəfəlik tutumundan istifadə səviyyəsi ölkə üzrə 24,4 faiz olmuşdur (birdəfəlik tutumunun (yerlərin) 75,6 faizi istifadəsiz qalıb).***

Belə ki, Dövlət Statistika Komitəsi "2025-ci ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin fəaliyyəti haqqında" məlumatları açıqlayıb.

Elə həmin məlumatlarda qeyd edilib ki, 2025-ci ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərdə keçirilmiş gecələmələrin sayı 2024-cü illə müqayisədə 6,7 faiz artaraq 4 milyon 569,5 min olub. Gecələmələrin ümumi sayının 58,9 faizi Bakıda, 5,6 faizi Qusarda, 5,1 faizi Naftalanda, 5,0 faizi Xaçmazda, 3,7 faizi Qəbələdə, 3,2 faizi Qubada, 3,0 faizi Lənkəranda, 2,2 faizi Şabranda, 1,5 faizi Şamaxıda, 1,2 faizi Gəncədə, 1,1 faizi Şuşada, 1,1 faizi Masallıda, 1,1 faizi Qaxda, 0,9 faizi Naxçıvan Muxtar Respublikasında və 6,4 faizi digər şəhər və rayonlardakı mehmanxanalarda (hotellərdə) və mehmanxana tipli obyektlərdə qeydə alınıb.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin keçirdiyi gecələmələrin sayı 2024-cü illə müqayisədə 11,3 faiz artaraq 2614,3 min olmuşdur ki, bu da ümumi gecələmələrin 57,2 faizini təşkil edir. Gecələmələrin ümumi sayının 13,6 faizi Hindistan, 10,1 faizi Rusiya Federasiyası, 9,3 faizi Türkiyə, 8,3 faizi Səudiyyə Ərəbistanı, 5,6 faizi İsrail, 5,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 3,9 faizi Pakistan, 3,4 faizi Çin, 3,3 faizi Özbəkistan, 3,2 faizi ABŞ, 2,8 faizi Qazaxıstan, 2,4 faizi Küveyt, 2,2 faizi Böyük Britaniya, 1,3 faizi Almaniya, 1,0 faizi İtaliya, 24,5 faizi isə digər ölkələrin vətəndaşlarının payına düşüb.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin keçirdiyi gecələmələrin 81,1 faizi Bakıda, 6,1 faizi Qusarda, 4,4 faizi Naftalanda, 3,2 faizi Qəbələdə, 2,4 faizi Qubada, 0,7 faizi Şamaxıda, 2,1 faizi isə digər şəhər və rayonlardakı mehmanxanalarda qeydə alınıb.

Azərbaycan Respublikası vətəndaşlarının mehmanxanalarda keçirdiyi gecələmələrinin sayı 2024-cü illə müqayisədə 1,1 faiz artaraq 1955,2 min olub ki, bu da ümumi gecələmələrin 42,8 faizini təşkil edir.

2025-ci ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri 2024-cü illə müqayisədə 5,9 faiz azalaraq 653 milyon manat olmuşdur ki, onun da 61,8 faizi nömrələrin (otaqların) təqdim olunması üzrə xidmətlərdən, 27,2 faizi ictimai iaşə xidmətlərindən, 2,9 faizi müalicə və sağlamlıq xidmətlərindən, 8,1 faizi isə digər xidmətlərin göstərilməsindən əldə edilib.

2025-ci ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin birdəfəlik tutumundan istifadə səviyyəsi ölkə üzrə 24,4 faiz olmuşdur (2024-cü ildə 24,0 faiz). Bu göstərici Naftalanda 48,5 faiz, Şabranda 41,7 faiz, Bakıda 36,9 faiz, Qusarda 31,7 faiz, Sabirabadda 27,7 faiz, Lənkəranda 23,3 faiz, Qəbələdə 21,5 faiz, Şamaxıda 20,5 faiz, Bərdədə 19,5 faiz, Qubada 16,6 faiz, Beyləqanda 15,7 faiz, Ağdamda 15,6 faiz, Qaxda 15,5 faiz, Masallıda 15,3 faiz, digər şəhər və rayonlarda isə 15,3 faizdən aşağı olub.

İqtisadçı ekspert Akif Nəsirli mövzunu şərh edərkən deyib ki, Azərbaycanda otel sektorunun bu vəziyyətdə olmasının əsas səbəblərindən biri bazarda real rəqabətin zəif olmasıdır. O, "Baki-xeber.com"a açıqlamasında vurğulayıb ki, bir çox iri otel obyektləri eyni qruplara və ya bir-biri ilə əlaqəli strukturlara məxsusdur. Bu isə klassik inhisar olmasa belə, "razılaşdırılmış bazar davranışı" yaradır: "Beləliklə, qiymətlər kəskin şəkildə aşağı salınmır, çevik endirim siyasəti formalaşmır və bazar özünü təmizləyə bilmir. Normal rəqabət mühitində doluluq bu qədər aşağı olduqda qiymətlər avtomatik enməli idi, amma bizdə bu mexanizm işləmir. Digər mühüm məsələ odur ki, otelçilik biznesinə çox vaxt peşəkar turizm menecerləri deyil, inzibati resurslara malik olan indiki və ya keçmiş məmurlar daxil olub. Bu obyektlərin bir hissəsi klassik kommersiya məntiqi ilə yox, daha çox "kapitalın saxlanılması", "status" və ya pulların leqallaşdırılması aləti kimi idarə olunur. Belə olanda əsas məqsəd maksimum səmərəlilik və doluluq yox, obyektin mövcudluğunu qorumaq olur".




Ümumiyyətlə, mütəxəssislər mütəmadi şəkildə vurğulayırlar ki, Azərbaycanda hotellərin qiymətləri kifayət qədər yüksəkdir və bu da vətəndaşların gəlirləri ilə adekvat deyil. Digər tərəfdən yüksək qiymətlər müqabilində hotellərdə vətəndaşların rahatlığı lazımi səviyyədə deyil . Bir vətəndaşın yaşaması üçün lazım olan, məsələn, paltaryuyandan saçqurudana qədər, paltar ütüləmək üçün xidmətlər, digər əşyaalarla təminat xidmətləri Azərbaycanda hələ tam formalaşmayıb. Hotellər yalnız boş otaqlardan ibarətdir. Hotellərdəki lazım olan məişət cihazlarının keyfiyyəti aşağıdır. Bu da əlbəttə ki, əsasən uzunmüddətli və yaxud da tətil dönəmində hotelə müraciət etmək istəyən vətəndaşlar üçün diskomfort yaradır. Belə məkanda yaşamaq onlar üçün əlverişli deyil. Ona görə də digər alternativ üsullara, məsələn şəxsi kirayə verilən mənzillərə üz tuturlar. Bir sözlə, xidmət səviyyəsinin aşağı olması və yaxud da xidmət səviyyəsinin təklif edilən qiymətlərə adekvat olmaması hotellərin boş qalmasında mühüm amillərdəndir.

"Unikal"a danışan ekspertlər Azərbaycanda hotellərin qiymətlərinə müəyyən korrektələrin, düzəlişlərin edilməsini vacib sayırlar. Onların fikrincə, standart qiymətlər olmamalıdır. Mütəmadi olaraq hotel sahibləri endirim aksiyaları keçirməlidir. Bu, dünya təcrübəsində də var. Unudulmamalıdır ki, Azərbaycana gələn turist hotellə bərabər bir həftə boyunca 700-1000 dollar aralığında, yəni uzaqbaşı 1700 manat pul xərcləmə qabiliyyətinə malikdir. Bu, nəzərə alınmalıdır. Unudulmamalıdır ki, hotellərin qiymətlərinin stabil olması ölkəyə turist axınını çoxalda, nəticədə də doluluq faizini əhəmiyyətli şəkildə artıra bilər.

***Sənan Mirzə***

04_27 IYUl-QARA.qxd 1/29/2026 8:35 PM Page 10



# Deputatların milyonluq tenderlərinin ilginc pərdəarxası

## Millət vəkillərinə mənsub şirkətlər necə "qaz vurub qazan doldururlar"?

***Azərbaycanda bəzi deputatlara aid şirkətlər sözün həqiqi mənasında "qaz vurub qazan doldurmaqdadırlar", Mətbuata açıqlamalarında sadə vətəndaşlara minimal şərtlər altında xoşbəxt yaşamağı tövsiyə edən bu cür deputatlar öz şirkətləri hesabına ağlasığmaz məbləğlərlə müşayiət olunan tenderlər qazanmaqdadırlar.***

Məsələn, bu günlərdə İnnovasiya və Təchizat Mərkəzi (İTM) bir gündə üç tender keçirib. Həmin tenderlərin ikisinin qalibi eyni şirkət olub.

Sözügedən satınalma müsabiqələrinə dair məlumatda deyilir ki, İTM tibb müəssisələri üçün bezlər alacaq. Bu məqsədlə "Zeytun Pharmaceuticals" MMC ilə 693 min 238 manatlıq sifariş verib. İkinci tenderin də qalibi adıçəkilən şirkət olub. Belə ki, İTM "Tibb müəssisələrində istifadə üçün nəzərdə tutulmuş spesifik sərfiyyat mallarını satın alacaq. Həmin layihənin dəyəri isə 947 min 928 manat təşkil edir.

İTM-in keçirdiyi üçüncü tender isə tibb müəssisələrində istifadə üçün nəzərdə tutulmuş cərrahi sapların alınmasını ehtiva edir. "PAŞA-K" FİRMASI ilə anlaşmaya əsasən Mərkəz 1 milyon 953 min 304 manat pul ödəyəcək.

Xatırladaq ki, "Zeytun Pharmaceuticals" MMC-nin deputat Cavanşir Feyziyevə məxsus olmasına dair iddialar var.

Bu arada Ali Attestasiya Komissiyası mebel və avadanlıqların satın alınması ilə bağlı tenderə yekun vurub. Qaynarinfo-nun məlumatına görə, tenderin qalibi "Embawood" MMC seçilib. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 1 791 295,46 manatdır.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında "Embawood" MMC-nin 11 iyun 2004-cü ildə qeydiyyata alındığı göstərilir. Şirkətin nizamnamə kapitalı 3750 manatdır. Hüquqi ünvanı Bakı şəhəri Yasamal rayonu, B.Bağırova küçəsi, ev 15 A-da yerləşən "Embawood" MMC-nin qanuni təmsilçisi Əliyev Emil Vaqif oğludur. Emil Əliyevin haqqında açıq mənbələrdə heç bir məlumat yoxdur.

Mebel sahəsində fəaliyyət göstərən "Embawood" MMC-nin təsisçisi deputat Məşhur Məmmədovdur. Bu fakt onunla bağlı bioqrafik məlumatlarda da yer alıb. Məşhur Məmmədov 2020-ci ildən deputatdır.

"Embawood" MMC cari ildə 11 tenderin qalibi seçilib. Bu tenderlər üzrə satınalma müqavilələrinin ümumi maliyyə dəyəri 4 652 474,74 manat edir.

Yuxarıdakı faktlardan da göründüyü kimi, deputatlara məxsus şirkətlər dövlət satınalma müsabiqələrində əməllibaşlı söz sahibidirlər və kifayət qədər iri məbləğlərlə müşayiət olunan tenderləri udurlar. Halbuki, həmin deputatların bir çoxu mətbuata açıqlamalarında nazirlərin, nazir müavinlərinin, icra başçılarının vətəndaşlar tərəfindən səsləndirilən şikayətlərə soyuq münasibətdən gileylənirlər. Beləsə sual yaranır: bir halda ki, deputat olaraq məmur özbaşınalığından, vəzifəli şəxslərin vətəndaş şikayətlərinə dırnaqarası münasibətindən narazısınız, onda hansı haqla özünüzün, ailə üzvlərinizin, doğmalarınızın adına şirkətlər açırsınız? Həm məmurlara ağız büzüb, həm də necə deputat ola bilirsiniz?! Göründüyü kimi, deputatlarımızın vətən, millət, dövlət barədə bir çox hallarda yüksək bəlağətli çıxışları elə quruca çıxışdan başqa bir şey deyil...

Onu da vurğulamaq yerinə düşər ki, qanunvericilik Milli Məclis deputatları, eyni zamanda dövlət qulluğunda çalışan məmurların bizneslə məşğul olmasını qadağan edir. Biznesləmə məşğul olub sonradan vəzifəyə təyinat alan şəxslər bu missiyalarını yaxın adamları, övladları, qardaşlarına ötürürlər. Bununla da rəsmi sənədlərdə artıq heç bir biznes fəaliyyəti ilə məşğul olmadıqları qeyd edilir. Faktiki olaraq isə onlar öz biznes imperiyalarına elə dövlətin təmsilçisi kimi himayədarlıq etməklə davam edirlər.



İstər-istəməz sual yaranır: əlaltından biznesləmə məşğul olub, qol qoyduqları hər cür qanunsuzluğu böyük bir məharətlə gizlədənlər nə vaxtsa bütün bu hoqqabazlıqlara "dur" deyə biləcəkmi? Günlərin bir günü aydın olacaqmı ki, yalan qarşısında susan - DİLSİZ ŞEYTANDIR! Hər halda gedişat onu göstərir ki, dünyada həqiqətlə yoğrulmuş sözdən - MÜBARƏK SÖZ, həqiqətlə qaynayıb-qarışaraq yalandan da, sözdən də MÜQƏDDƏS SÖZ yoxdur. Həyatın çətin günlərindən keçirik.

Və yaşadığımız indiki dəhşətli günlərin içində bircə bu aydındır ki: qapısını döydüyümüz həmin o, həyatda yerli-dibli kimsə yoxdur, hətta kimsə varsa da - xoşbəxtdir!!

Xoşbəxtdir ki, tenderləri, dövlət müsabiqələrini nə qədər acgözcəsinə qamarlasa da, arabir kövrələ bilir.

Kövrələ bilir ki, insanın taleyi - vətənin taleyidir.

Adam nə qədər çox ağlasa və ağrısa belə, bir o qədər də taleyinə bağlıdır.

Taleyinə və... Vətəninə!!!!

**Toğrul Əliyev**

# Növbəti köç karvanı Məmmədbəyli kəndinə çatıb



***Zəngilan rayonunun Məmmədbəyli kəndinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına çatıblar.***

"Unikal" xəbər verir ki, Məmmədbəyli kəndi 26 ailə olmaqla, 142 nəfərə qucaq açıb. Kəndə qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurdlarına qovuşublar. Sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, kəndin ümumi sahəsi 51,6 hektardır. Kənddə 188 ev inşa edilib, onlardan 39-u iki, 55-i üç, 55-i dörd və 39-u beşotaqlıdır. Hər bir ev üçün həyətyanı ərazi ayrılıb. Evlərdə Günəş panelləri quraşdırılıb, su, işıq, qaz, yüksəksürətli internet şəbəkəsi ilə təmin olunub. Kənddaxili yollar asfaltlanıb. Kənddə çoxfunksiyalı 2 qeyri-yaşayış binası da inşa olunub. Köçürülən ailələrin, evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

# Natiq Qasımovun oxuduğu məktəbdə büstünün açılışı oldu



***Mingəçevir şəhərində Milli Qəhrəman Natiq Qasımovun təhsil aldığı və adını daşıdığı 4 saylı tam orta məktəbdə büstünün açılışı olub.***

"Unikal" xəbər verir ki, açılış mərasimində elm və təhsil naziri Emin Əmrullayev, Milli Qəhrəmanın ailə üzvləri, yaxınları və ictimaiyyət nümayəndələri iştirak edib.

**Ehtiram Muradov**

# "İndiki mərhələdə belə bir dönüş nöqtəsinə ehtiyac var" - İqtisadçı



***"Üç gün əvvəl "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilib. Sənəd həcmcə böyükdür, məzmunca isə olduqca strategidir".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. İqtisadçı düşünür ki, kənar maneələr və təzyiqlər olmazsa, bu informasiya sistemi dövlət maliyyə idarəçiliyinin arxitekturasını dəyişə bilər.

"Sistemin əsas məqamlarına gəldikdə, dövlət büdcəsi, dövlət borcu, xəzinədarlıq, investisiya layihələri, inzibati cərimələr, rüsumlar, dövlət müəssisələri, mühasibat uçotu və bu sistemlə əlaqəli nə varsa, hamısı vahid rəqəmsal platformada toplanır. Sistemdə məlumatlar real vaxt rejimində izlənilir, təhlil edilir və proqnozlaşdırılır. Büdcə xərcləri üzrə nəzarət mexanizmi gücləndirilir, "sonradan yoxlama" əvəzinə "icra zamanı monitorinq" yanaşması tətbiq olunur. Eyni zamanda güzəştlərin, azadolmaların, subsidiyaların büdcəyə real təsiri ölçülə bilən olur. Dövlət müəssisələri üzrə maliyyə intizamı və şəffaflıq sistemli şəkildə artırılır. Həmçinin, elektron müqavilə, elektron mühasibat, elektron rüsum və mədaxil mexanizmləri kölgəni daraldır, hesabatlılığı genişləndirir.

Məsələnin ən vacib tərəfi isə budur ki, bu Əsasnamə maliyyə dayanıqlığı, şəffaflıq, hesabatlılıq və dövlət vəsaitinə nəzarət baxımından uzun müddətdir danışılan, amma bəzi hissələri parçalı şəkildə tətbiq edilən yanaşmaları vahid sistemə birləşdirir. Kənar müdaxilələrsiz və texniki-institusional baxımdan düzgün icra edilərsə, bu sistem dövlət maliyyəsinin idarə olunmasında qaydaları dəyişə bilər. Hansı ki, indiki mərhələdə ölkə üçün məhz belə bir dönüş nöqtəsinə ehtiyac var".

## Nazir gənc müəllim və direktorlarla görüşdü

***Yanvarın 29-da elm və təhsil naziri Emin Əmrullayev Mingəçevir şəhərində Noel Ahəngari adına 13 nömrəli tam orta məktəbdə bir qrup gənc müəllim və məktəb direktoru ilə görüşüb.***



Görüş zamanı məktəblərdə tədris mühitinin təşkili, təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkar inkişafı və məktəb idarəçiliyində səmərəliliyin artırılması məsələləri geniş müzakirə olunub.

Elm və təhsil naziri Emin Əmrullayev görüşdə müəllimin yalnız fənn biliklərini ötürən şəxs deyil, eyni zamanda yaxşı metodist, düzgün istiqamət verən və şagirdi düşünməyə təşviq edən pedaqoq olmasının vacibliyini vurğulayıb. Nazir şagird-müəllim münasibətlərinə də toxunaraq bildirib ki, qarşılıqlı etimad və hörmət üzərində qurulan münasibət təlim nəticələrinə birbaşa təsir göstərir.




Görüşdə dərsliklərin məzmunu və tətbiqi ilə bağlı məsələlərə də diqqət yetirilib. Müəllimlər tədris prosesində qarşılaşdıqları çətinliklər, dərs yükü, metodiki dəstək, qiymətləndirmə mexanizmləri, dərsliklərlə bağlı təkliflər, həmçinin şagirdlərin oxu bacarıqlarının inkişafı ilə bağlı suallar səsləndiriblər. Nazir bütün sual və təklifləri dinləyib, mövcud islahatlar, planlaşdırılan yeniliklər və praktik yanaşmalar barədə ətraflı məlumat verib.

Məktəb direktorları da öz növbəsində, idarəetmədə qarşılaşdıqları məsələlər, məktəbdaxili monitorinq, müəllimlərlə iş və valideynlərlə əməkdaşlıq mövzusunda fikirlərini bölüşüblər.

Görüş zamanı nazir məktəb rəhbərlərinin təşəbbüskarlığının və məsuliyyətinin təhsilin keyfiyyətinə birbaşa təsir etdiyini qeyd edib.

Sonda Emin Əmrullayev təhsil ictimaiyyəti ilə bu cür görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq, müəllim və direktorların səsləndirdiyi təkliflərin nəzərə alınacağını bildirib, eyni zamanda, Mingəçevir məktəblərinin pedaqoji kollektivinə uğurlar arzulayıb, təhsildə keyfiyyətin yüksəldilməsinin yalnız birgə əməkdaşlıq və ardıcıl fəaliyyətlə mümkün olduğunu qeyd edib.

# Dövlət Sosial Müdafiə Fondunun əcaib məntiq(sizliy)i

## Ödənilmiş vəsaitləri geri tələb etmək düzgündürmü? - İlginc təfərrüatlar

***Dövlət Sosial Müdafiə Fondu (DSMF) ünvanlı sosial yardım (ÜSY) almış bəzi ailələrə məktub göndərərək, indiyədək ödənilmiş vəsaitlərin geri qaytarılmasını tələb edib. Vətəndaşların bildirdiyinə görə, Fondun Maddi-Məişət Şəraitinin Müayinəsi üzrə Mərkəzi filialının göndərdiyi məktubda ÜSY alan şəxslərin qanunvericiliyi pozduğu, gəlirlərini gizlətdiyi qeyd olunur.***

Bildirilir ki, "Ünvanlı sosial yardım haqqında" qanunun 10.2-ci maddəsinə əsasən, ÜSY təyin edildikdən sonra gəlirlərdə baş verən dəyişikliklər barədə vətəndaş 15 gün müddətində aidiyyəti quruma məlumat verməlidir. Qanunun 1.0.6-cı maddəsinə görə isə vətəndaş artıq hesablanmış və ödənilmiş sosial qurumların çoxmilyonluq büdcə xərcləmələrinə, qeyri-şəffaf tenderlərə, altı sıfırlı icarə müqavilələrinə ciddi nəzarət müşahidə edilmir. Medianın soruşduqları cavabsız qalır, ictimailəşən korrupsiya faktlarına isə reaksiya verilmir.

Sanki vətəndaşın ərzağına, ən zəruri ehtiyaclarına xərclənən kiçik məbləğ izafi xərc kimi qəbul olunur və onu hansı yolla olur-olsun yoxsulun boğazından çıxarmağa çalışırlar.

Təsadüfi deyil ki, DSMF ÜSY-dən məhrum etdiyi vətəndaşların sonrakı taleyi ilə maraqlanmır. Vətəndaş bir səhvə görə yardımdan kənarda qalırsa, onun bundan sonra necə yaşayacağı sosial qurumu maraqlandırmır. Halbuki bu qurum büdcə vəsaitini xərcləyən dövlət strukturudur. Heç bir məmur atasının pulunu yoxsul ailələrə vermir.

masi tələb edilir: "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Maddi-Məişət Şəraitinin Müayinəsi üzrə Mərkəzi Filialı bildirir ki, sizin ünvanlı dövlət sosial yardımınız üzrə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın 4-cü bəndinə əsasən, ailə üzvünün məşğulluğunun öz təsdiqini tapmaması səbəbilə) uyğunsuzluq aşkar edilib.

Bildiririk ki, sizə 01.01.2023-cü il tarixdən 01.07.2023-cü il tarixədək ümumilikdə 3035.15 (üç min otuz beş manat 15 qəpik) manat məbləğində artıq vəsait ödənilib. Həmin məbləğin 10 iş günü müddətində fondun hesabına geri bərpa olunması tələb olunur. Əks təqdirdə qanunauyğun tədbirlər görüləcək".

yardımı geri qaytarmalıdır.

"Azpolitika"ya müraciət edən vətəndaşların dediklərindən belə aydın olur ki, Fond bəzən 5-6 min manat, bəzən isə daha artıq vəsaitin geri qaytarılmasını tələb edir. Məbləğ geri qaytarılmadığı halda DSMF məhkəməyə müraciət edərək ödənişin tutulmasına nail olur. Nəticədə isə yoxsul ailənin bir daha ÜSY üçün müraciət etmək imkanı faktiki olaraq sıfırlanır. Bu isə yoxsulluq həddində yaşayan ailələr üçün ciddi "sürpriz"ə çevrilir. Gündəlik çörəkpulu dərdi çəkən ailənin bu qədər vəsaiti hansı mənbədən tapıb geri qaytarması sual doğurur.

Məlumdur ki, DSMF əməkdaşları ÜSY üçün müraciət edən vətəndaşların evlərinə baxış keçirir, təqdim olunan məlumatların doğruluğunu yerində yoxlayırlar. Bundan başqa, bank əməliyyatları, kart hesabları, mobil telefon xərcləri, aylıq kommunal ödənişlərin həcmi, ölkədən çıxış-giriş məlumatları da diqqətlə araşdırılır. Mütəxəssislər bildirirlər ki, son illər elektron bazaların genişlənməsi sayəsində bank hesabları, kart dövriyyəsi, əməkhaqqı və digər gəlirlər daha asan aşkar olunur. Bu səbəbdən bəyan edilməmiş gəlirlərin gizlədilməsi halları sürətlə üzə çıxır. Həmin gəlirlər isə əksər hallarda çox kiçik məbləğlər olur - bəzən 10-15 manat.

Hətta vətəndaşın sosial vəziyyəti ÜSY-nin təyin olunması üçün yetərli olduğu halda belə, qurum müxtəlif bəhanələrlə imtina cavabı verir, yalnız dəfələrlə təkrar müraciətdən sonra qərar çıxarılır. Lakin bu da yardımın bir il ərzində fasiləsiz ödəniləcəyinə təminat vermir. Fond qanunda göstərilən çoxsaylı tələblərə əsaslanaraq vətəndaşın xırda texniki səhvini aşkar edən kimi dərhal ÜSY-ni dayandırır və onu 6 ay müddətinə müraciət hüququndan məhrum edir.

Qeyd edək ki, qaydalar və məhdudiyyətlər həddən artıq çoxdur, vətəndaşa isə ikinci şans verilmir. Əslində sosial qurumun yoxsul ailələrin acından ölməməsi üçün verilən kiçik məbləğə lupa ilə baxması heyrət doğurur. Halbuki



Diqqətçəkən məqamlardan biri də DSMF-nin yoxsul vətəndaşlarla davranışının Prezidentin həyata keçirdiyi sosial siyasətlə ziddiyyət təşkil etməsidir. Belə ki, dövlət başçısı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ÜSY alan ailələrin hər birinə 200 manat birdəfəlik yardım ayrılması barədə sərəncam imzalayıb. Sərəncam hazırda ünvanlı sosial yardımla təmin olunan 76 min ailəni (335 200 nəfər ailə üzvü) əhatə edir və bu yardım bayram ərəfəsində onların maddi təminatına dəstək məqsədi daşıyır.

Qeyd edək ki, 2018-2025-ci illər ərzində ünvanlı sosial yardımın hər ailəyə düşən orta aylıq məbləği 2,4 dəfə artaraq hazırda 425 manat təşkil edir.

Şikayətlərlə bağlı Dövlət Sosial Müdafiə Fondu hələ ki, açıqlama verməyib.

"Unikal"ın araşdırması zamanı aydınlaşıb ki, DSMF-nin bəzi vətəndaşlardan ötən illərdəki ödənişləri geri tələb etməsi prosesi bir neçə aydır başlayıb. Hələ sentyabrda bir vətəndaş iki il öncə aldığı sosial yardımın geri qaytarılmasının tələb olunduğundan şikayətlənib. Sosial mediada bununla bağlı paylaşımda qeyd olunub ki, ödənilən vəsaitin 10 iş günü ərzində geri ödənil-

Həmin vaxt hüquqşünas Əliməmməd Nuriyev bildirmişdi ki, ünvanlı sosial yardımla bağlı məsələlərin tənzimlənməsi üçün Nazirlər Kabinetinin 2016-cı il 5 fevral 37 nömrəli qərarı mövcuddur: "Eyni zamanda, İnzibati Xətalar Məcəlləsi, Mülki Məcəllədə artıq ödənilmiş dövlət vəsaitinin geri qaytarılması ilə bağlı normalar var. Qaydalara əsasən, ünvanlı sosial yardım təyin edilərkən vətəndaşın ailə tərkibi, gəlirləri, məşğulluğu barədə düzgün məlumat vermək öhdəliyi var. Düzgün təqdim edilməyən məlumatlar əsasında edilən ödənişlər geri qaytarılmalıdır. Əks halda dövlət qurumu məhkəmə qaydasında bu vəsaiti geri tələb edə bilər. Vətəndaş, həqiqətən, məlumatı gizlədib və ya yanlış təqdim edibsə, qanuna görə, artıq ödənilmiş sosial yardım geri qaytarılmalıdır".

Onun sözlərinə görə, göndərilən bildirişdə hər hansı uyğunsuzluq olduğunu hesab edən, habelə məşğulluq barədə arayışların vaxtında təqdim olunduğunu, lakin nəzərə alınmadığını düşünən vətəndaşın şikayət etmək və məhkəməyə müraciət etmək hüququ var: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Sosial Müdafiə Fondunun daxili şikayət mexanizmləri mövcuddur. İlkin olaraq buraya yazılı müraciət edib, daha sonra İnzibati Məhkəmədə verilən qərarın ləğvi tələb edilə bilər. Bu zaman bildirişdəki uyğunsuzluq öz təsdiqini taparsa, vətəndaş qanun üzrə artıq ödənilən məbləği geri qaytarmalıdır. Bu qərarın əsassız olduğunu düşünən vətəndaş hüquqi müdafiə mexanizmindən istifadə etməklə qərarları ləğv etdirə bilər".

Hər halda cəmiyyətdə müzakirələr daha çox bir sual ətrafında gedir: DSMF yoxsulluqla mübarizə aparır, ya yoxsullarla?!

***Toğrul Əliyev***




# Azərbaycan diplomatik krizin qarşısını aldı - Terrora cəhdin təfərrüatları

***Dövlət Təhlükəsizliyi Xidməti yanvar ayının 27-də xarici ölkənin Azərbaycandakı səfirliyinə qarşı terror hücumu etməyə hazırlaşan şəxsləri həbs edib.***

Bu, dövlətin terrorla mübarizə sisteminin yüksək səviyyədə işlədiyini göstərir. Həmçinin məlum olub ki, sözügedən şəxslər İsrailin Bakıdakı səfirliyinin yaxınlığında ələ keçiblər. İsrailin xarici kəşfiyyat xidməti (Mossad) qeyd edib ki, hədəf onların səfirliyi olub.

Bu hadisə Azərbaycan üçün yalnız daxili təhlükəsizlik məsələsi deyil, həm də regiondakı geosiyasi dinamika və beynəlxalq əməkdaşlığa təsir edən bir amildir. Hədəf kimi diplomatik obyektlərin seçilməsi dünyanın müxtəlif yerlərində terror hücumlarının prioritetlərindən biridir və belə planların qarşısının alınması hər bir dövlət üçün əsas siyasi və təhlükəsizlik vəzifəsidir.

Xatırlatmaq lazımdır ki, oxşar terror hücumu planı üç il bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyinə də edilmişdi. Təəssüf ki, bu plan reallaşmışdı.

Terroru törədən İran vətəndaşı Yasin Hüseynzadə "Kalaşnikov" markalı avtomat silahla mühafizə postunu yararaq mühafizə xidmətinin rəisi Orxan Əsgərovu qətlə yetirmişdi. Cinayətkarı zərərsizləşdirən Tağıyev Vasif Natiq oğlu isə ağır yaralanmışdı.

Hadisədən sonra Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyəti dayandırılıb. Azərbaycanın İrandakı səfirliyinin əməkdaşları və ailə üzvləri 29 yanvar 2023-cü il tarixində Tehrandan Bakıya təxliyə olunmuşdu.

İki dövlət arasında aparılmış danışıqlar nəticəsində 15 iyul 2024-cü il tarixindən etibarən Azərbaycanın İrandakı səfirliyi yeni ünvanda fəaliyyətini bərpa edib, səfir və səfirliyin heyəti İrana geri dönüb.

Bu mənada demək yerinə düşər ki, səfirliyə hücumun uğurla iflasa uğradılması ilə Azərbaycanın xüsusi xidmət orqanı diplomatik krizin qarşısını alıb.




Ümumiyyətlə, Azərbaycan-İsrail münasibətləri son illərdə strateji əməkdaşlıq səviyyəsinə yüksəlib. Əlaqələrin güclü olduğu bir dövrdə səfirliyə yönəlik terror planının ortaya çıxması, ehtimal ki, bu əməkdaşlığın əleyhdarlarının narahatlığından qaynaqlanır.

Həbs olunmuş şəxslərin yaşının gənc olması (2000 və 2005-ci il təvəllüdlü) radikallaşma tendensiyası barədə cəmiyyətdə suallar yaradır. Əksər hallarda radikal ekstremist qruplar gənclərə təsir göstərərək onların ideologiyasını mənimsəməyə çalışır. Bu isə həm təhsil, həm sosial siyasət, həm də dini maarifləndirmə sahələrində dövlətin daha çox diqqət tələb edən mövqeyə malik olduğunu xatırladır.

Bəlkə də elə bunun nəticəsidir ki, yanvar ayının 28-də Milli Məclisdə müzakirə olunan "Uşaq hüquqları haqqında" qanun layihəsində uşaqların dini ayinlərdə iştiraka məcbur edilməsinin qadağan olunacağı bildirilib.

Qeyd olunub ki, uşaqların dinə etiqad etməyə məcbur edilməsi qadağandır. Uşaqların dini tərbiyəsi onların fiziki və psixi sağlamlığına mənfi təsir göstərməməlidir.

### Nazirin Bakıya səfərindən bir gün sonra...

Daha bir diqqətçəkən məqam odur ki, "Vilayəti-Xorasan" silahlı qruplaşmasının İsrail səfirliyinə qarşı terror cəhdi Xarici İşlər Naziri Gideon Saarın Bakıya səfərindən bir gün sonra baş verib. Bəlkə də hadisələr elə həmin gün cərəyan edib və hədəf nazirin özü olub.

Belə hücum planları adətən təsadüfi vaxta salınmır. Zamanlama göstərir ki, məqsəd fiziki zərərdən çox simvolik təsir yaratmaqdır.

Mesajın mahiyyəti isə bunlardır: Azərbaycan-İsrail yaxınlaşması qəbul edilmir, bu əməkdaşlıq təhlükəsizlik riski yaradır, Azərbaycan-İsrail münasibətlərinin regionda əleyhdarları var.

Yəni hədəf təkcə İsrail səfirliyi yox, Azərbaycanın seçdiyi xarici siyasət kursudur.

Gideon Saarın səfəri iki ölkə arasında təhlükəsizlik, enerji, regional əməkdaşlıq mövzularında əlaqələrin dərinləşdiyini göstərirdi. Terror planı isə bu yaxınlaşmaya qarşı dolayı yolla sabotaj cəhdi kimi oxuna bilər.

### Azərbaycanın təmkinli cavabı

Terror cəhdindəki siyasi mesaj bu əməkdaşlığın risksiz olmadığını və daxili sabitliyə təsir göstərə biləcəyindən ibarətdir. Bu, klassik asimmetrik təzyiq üsuludur. Yəni dövlətə yox, onun tərəfdaşına zərbə vurmaqla mesaj vermək.

İsrailin regiondakı fəaliyyəti ilə bağlı gərginliklərin Cənubi Qafqaza daşınması cəhdi də bu kontekstdə mümkündür. Burada mesaj həm İsrailə, həm də Azərbaycanadır.

İsrailə: "Siz harada varsınızsa, risk də oradadır"!

Azərbaycana: "Bu münaqişənin tərəfi kimi görünə bilərsiniz"!

Bu, xüsusən radikal ideoloji qrupların tez-tez istifadə etdiyi ritorikadır.

Azərbaycanın verdiyi cavab isə səssiz, amma aydın oldu. Ən önəmli cavab, əslində, sürətli əməliyyat və həbslərlə verildi. Azərbaycan öz ərazisində kiminlə necə əməkdaşlıq edəcəyinə özü qərar verir və bunu güc və ya terror yolu ilə dəyişmək mümkün deyil!

*Ağarza Elçinoğlu*



# Paşinyan Azərbaycanla dəmir yolunun tikintisindən danışdı

***"Regional kanalların açılması məsələsində əməkdaşlığımızı dərinləşdirmək üçün rusiyalı tərəfdaşlarımızla nəinki əməkdaşlıq etməyə hazırıq, həm də bunu istəyirik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan jurnalistlərlə keçirdiyi brifinqdə bildirib.

"Düzünü desəm, [Rusiyaya] yazılı müraciət etmişik, hazırda cavab olub-olmadığını bilmirəm. Amma ümumilikdə müsbət siqnallar alırıq. Ümid edirik ki, proses sürətlənəcək.

Yanvar ayında Ermənistan və Azərbaycan nümayəndələri dəmir yolunun Yerasx-Sədərək hissəsini ziyarət etdilər. Bununla bağlı bəyanat verildi, yəni proseslər gedir və biz regional prosesləri dayandıra bilmərik.

Ümid edirik ki, rusiyalı tərəfdaşlarımız tərəddüd etməyəcəklər. Eyni şey Axurik hissəsinə də aiddir. Əgər rusiyalı tərəfdaşlar nədənsə bu investisiyanı etmək istəmirlərsə, Ermənistan tərəfi həmin hissələri geri götürəcək və onları müstəqil şəkildə təmir edəcək", - deyə Baş nazir açıqlayıb.

*Ağarza Elçinoğlu*

# Ruslan Eyyubov ev dustaqlığına buraxılmadı



***5 milyon manatlıq siqaret qaçaqmalçılığı ilə bağlı həbs edilən tanınmış iş adamı Ruslan Eyyubov ev dustaqlığına buraxılmasını istəyir.***

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, bu barədə onun vəkili tərəfindən məhkəməyə vəsatət təqdim olunub.

Müdafiəçi müvəkkilinin daimi yaşayış yerinin olduğunu və istintaqdan yayınma riskinin real görünmədiyini əsas gətirərək həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasını xahiş edib.

Lakin məhkəmə təqsirləndirilən şəxsin xüsusilə ağır cinayətdə ittiham olunmasını və istintaqın yeni başlanmasını nəzərə alaraq vəsatəti rədd edib. Ruslan Eyyubovun həbsdə saxlanılması qərarı qüvvədə saxlanılıb.

Qeyd edək ki, çox epizodlu cinayət işi Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən istintaq olunub. İstintaqla "Bakı-Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC-nin rəisi Rəşad Daşdəmirov və bir neçə gömrükçü də həbs edilib.

"Bakı-Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı"nın faktiki sahibi isə Ruslan Eyyubovdur. Bu hadisələrdən sonra onun Dövlət Gömrük Komitəsinin Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsinin rəisi işləyən qardaşı general-mayor Həsən Eyyubov da işdən çıxarılıb. Onlar Prezidentin Mühafizə Xidmətinin keçmiş rəisi general-polkovnik Bəylər Eyyubovun qardaşı oğullarıdır.

04_27 IYUI-QARA.qxd 1/29/2026 8:35 PM Page 11



# Biləsuvar heyvan bazarı yenidən fəaliyyətə başladı




***Biləsuvar rayonu, Əliabad kəndi ərazisində yerləşən heyvan bazarı yenidən fəaliyyətə başlayıb.***

Bu barədə "Unikal"a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Bildirilib ki, bazar ərazisi asfaltlanıb. Giriş və çıxış qapısında dezbaryerlər, həmçinin yem anbarı, iri və xırdabuynuzlu heyvanların satış sahələri yenidən qurulub. Rampa və çardaqlar quraşdırılıb. Baytarlıq nəzarəti məqsədilə kliniki baxış platformaları yaradılıb. Xəstə heyvanların digər heyvanlardan təcrid olunaraq saxlanılması üçün xüsusi izolyatorlar tikilib.

Aparılan qiymətləndirmə nəticəsində heyvan bazarında bioloji təhlükəsizlik və dövlət baytarlıq nəzarətinin həyata keçirilməsi üçün zəruri şəraitin yaradıldığı müəyyən edilib.

Qeyd edək ki, bundan öncə Beyləqan, Ağcabədi, İmişli, Şamaxı, Göyçay, Salyan, Göygöl və Bərdə heyvan bazarları fəaliyyətə başlayıb.

# Cinayət axtarışı məhkəmə qərarı olmadan da aparılacaq



***Cinayət işi ilə bağlı axtarış və ya götürmənin aparılması qaydasına dəyişiklik edilir.***

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirəyə çıxarılan Cinayət-Prosessual Məcəlləsinə təklif olunan dəyişikliklərdə öz əksini tapıb.

Layihəyə əsasən, təxirə salına bilməyən hallarda müstəntiq axtarış və ya götürməni məhkəmənin qərarı olmadan şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayətin törədilməsinə və ya həmin cinayətin törədilməsinə hazırlığın aparılmasına dəlalət edən İKT sisteminin, onun hissələrinin, elektron verilənlərin saxlanıldığı daşıyıcıların və ya elektron verilənlərin gizlədilməsini və ya məhv edilməsini apara bilər.

Əldə olunan sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin materialları hər hansı İKT sistemində, onun hissələrində, elektron verilənlərin saxlanıldığı daşıyıcılarda və ya elektron verilənlərdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək məlumatların olmasını güman etməyə kifayət qədər əsas verdikdə, həmin sistemdə, onun hissələrində, elektron verilənlərin saxlanıldığı və elektron daşıyıcılarda verilənlərdə axtarış aparıla və İKT sistemi, onun hissələri, elektron verilənlərin saxlanıldığı daşıyıcılar və ya elektron verilənlər götürülə biləcək və bu vasitələrin götürülməsində mütəxəssis iştirak edəcək.

Qeyd edək ki, dəyişikliklə bəzi hallarda artıq məhkəmə qərarı olmadan da təcili axtarış və götürmə mümkün olacaq. Mövcud qanunvericilikdə bunun üçün məhkəmədən icazə alınmalı idi. Dəyişiklik bəzi məlumatların silinmə və gizlədilmə ehtimalını aradan qaldırmağa yönəlib.

# Torpaq vergisi bəyannaməsinin təqdim olunması müddəti dəyişdi

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti torpaq vergisi bəyannaməsinin təqdim olunması müddətini dəyişib.***

"Unikal" quruma istinadən xəbər verir ki, Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, torpaq vergisi üzrə bəyannamələrin təqdim edilməsi müddəti müəyyənləşdirilib.

Məcəllənin 208.2-ci maddəsinə uyğun olaraq, müəssisələr torpaq vergisini torpaq sahələrinin ölçüsünə və tətbiq olunan vergi dərəcələrinə əsasən, illik qaydada hesablayırlar. Hesablanmış torpaq vergisi üzrə bəyannamə hesabat ilindən sonrakı ilin yanvarın 31-dən gec olmayaraq müvafiq vergi orqanına təqdim edilməlidir. Bu il 31 yanvar tarixi iş günü olmadığına görə, hesabatın təqdim olunması müddəti həmin tarixdən sonrakı birinci iş gününə qədər, yəni fevral ayının 2-nə qədər artırılıb.

# Məmur ailələrində dəhşət...

## Yüksək vəzifəli şəxslərin övladları ilə bağlı nə baş verir?

***Son vaxtlar yüksək vəzifəli şəxslərin, indiki və sabiq məmurların övladları ilə bağlı dəhşətli xəbərlər bir-birini əvəz edir. Son olaraq yanvarın 25-də Qəbələ Rayon Məhkəməsinin sədri Abbas Əliyevin oğlu Emin Əlizadə uşaqlarının gözü qarşısında həyat yoldaşı Şəfiqə Ələkbərovaya 20 bıçaq zərbəsi vurub. E.Əlizadə hadisəni törədəndən sonra yaşadığı 10-cu mərtəbədən 16-cı mərtəbəyə qalxaraq gözləyib. Hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerinə gələrkən o, özünü 16-cı mərtəbədən yerə ataraq intihar edib.***

Emin Əlizadənin Şəfiqə Ələkbərovanı qəsdən öldürməyə cəhd etməsi, daha sonra isə özünü hündürlükdən ataraq intihar etməsi faktı ilə bağlı Xətai rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1 (qəsdən adam öldürməyə cəhd) və 125-ci (özünü öldürmə həddinə çatdırma) maddələri ilə cinayət işi başlanılıb.



Bundan əvvəl isə Yevlaxda silahlı insident baş vermişdi: 39 yaşlı Zaur Səmədov qeydiyyatda olan ov tüfəngi ilə xuliqanlıq zəminində tanışı 46 yaşlı şəxsin ayaq nahiyyəsinə xəsarət yetirmişdi.

Hadisənin ardınca Z.Səmədov polis əməkdaşları tərəfindən saxlanılmışdı.

Faktla bağlı Yevlax Rayon Polis Şöbəsində cinayət işi başlanılıb, araşdırma aparılır.

Yerli KİV-in məlumatına görə, Zaurla güllələdiyi şəxs qonşu olublar. Qonşunun mal-qarası Z.Səmədovun həyətinə girib. Bundan sonra onlar arasında mübahisə baş verib və bu, güllələnmə ilə yekunlaşıb.

Onu da deyək ki, Zaurun Yevlaxın sabiq icra başçısı Qoca Səmədovun oğlu olduğu da aydınlaşıb.

Bu arada Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin sabiq rəis müavini, general-mayor Novruzəli Orucovun oğlu Rüstəm Orucovla onun keçmiş sevgilisi arasında qalmaqal yaranıb. Nəticədə oğul Orucov qarşı tərəfdən üzr istəməli olub.

Qalmaqalın detalları isə kifayət qədər tükürpədicidir: N.Xudaverdiyevanın bildirdiyinə görə, Rüstəm ona evlilik təklifi edib və bir ildən çox sevgili olublar: "Lakin hər münasibətdə problem olduğu kimi, bizdə də bəzi məsələlər oldu, ayrıldıq. Oktyabrdan isə yeni münasibətə başladım. Bunu öyrənən Rüstəm Orucov məni təhdid etməyə başladı. O bunu həzm etməyərək evimizə gəlib maşınıma ziyan vurur, məni təhqir edib. Haqqımda neqativ fikirlər səsləndirib. Bu günə qədər polisə şikayət etməmişəm. Dünən isə mənim adımdan feyk profil açaraq özünə ondan ötrü darıxdığımı yazıb və hazırda münasibətim olduğu insana göndərib. Təbii ki, burada məqsəd bizim münasibətimizi bitirmək olub. Artıq canımdan bezmişəm, yaşamaq istəmirəm. Keçmiş məmurun övladı olduğuna güvənib məni əzməyi düşünür".

Məsələ barədə R.Orucovun keçmiş sevgilisinin paylaşımından sonra polis əməkdaşları məsələni dərhal nəzarətə götürüblər və araşdırmalar başlanılıb: "Dünən məni Nərimanov Rayon Polis İdarəsinə dəvət etdilər. Rüstəm Orucovu da idarəyə çağırdılar. O, əvvəlcə sosial şəbəkələrdə etdiyi əməlləri təkzib etsə də, Nərimanov Rayon Polis İdarəsində törətdiyi əməlləri boynuna alıb və yazılı surətdə etdiyi əməldən peşman olduğunu bildirdi. Rüstəm Orucov anamdan və məndən üzr istəyərək, gələcəkdə bir də belə hallara yol verməyəcəyini bildirdi. Buna görə də şikayətimi geri götürdüm. Operativ və obyektiv yanaşmaya görə Daxili İşlər Nazirliyinə və Nərimanov Rayon Polis İdarəsinə öz təşəkkürümü bildirirəm".

Xatırladaq ki, R.Orucov qalmqalları ilə bağlı mütəmadi gündəmə gəlir. Keçmiş məmur oğlu hətta 2017-ci ildə həbs də edilib. Həmin vaxt o, R. Orucov tam qanunsuz şəkildə 10-OG-300 nömrəli BMW-nin sükanı arxasına əyləşərək qaydaları yenidən pozub və 85 saylı marşrut avtobusunun sürücüsü Sənan Səmədovla mübahisə edib. Oğul Orucov avtobus sürücüsünün qınağına cavab olaraq sərnişinlərin gözləri qarşısında ona hücum edib, döyməyə başlayıb və beləliklə, qatı xuliqanlıq hərəkətləri edib. Bunun əvəzində isə həbsə atılıb. Onun general atası elə həmin hadisədən sonra vəzifəsini itirmişdi.

Qeyd edək ki, son vaxtlar Azərbaycanın bir sıra məmur ailələrində baş verən tükürpədici hadisələrlə bağlı xəbərlərin artması maraq doğurur. Bəzən hətta faciəvi nəticələr doğuran belə hadisələrin konkret psixoloji, mənəvi səbəb, yaxud səbəbləri haqqında danışmaq çətindir. Lakin o dəqiqdir ki, bir çox hallarda vətəndaşların lüks imkanlarına, komfortlu həyat tərzinə qibtə ilə baxdıqları belə ailələrdə hər şey kənardan göründüyü qədər rahat, dəbdəbəli, təmtəraqlı deyil...

***Sənan Mirzə***

**5.3.7. işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Xan yurduna Böyük Qayıdış...

## Xankəndi şəhərinin ilk sakinlərinin torpaq həsrəti sona çatdı



***Azərbaycan Respublikasının ərazi bütövlüyünün və tam suverenliyinin təmin edilməsindən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq və yenidənqurma işləri, doğma yurdlarına dönən vətəndaşlarımızın məskunlaşmaları, onların sosial qayğılarının qarşılanması istiqamətində ardıcıl tədbirlər uğurla davam etdirilir. Xan yurdu olan Xankəndi şəhərinə, ulularımızın bizə əmanəti olan torpağa Böyük Qayıdış da nəhayət baş tutdu.***

Körpə yaşlarında Xankəndini tərk edən Vəfa Abbasova “Unikal” qəzetinə müsahibəsində bildirib ki, Xankəndi işğaldan azad edilən gün onların həyatının ən xöşbəxt günü olub: “Anamın, bacılarımın burada xatirəsi çox olduğundan onlar daha çox duyğulanırdılar. Mən isə daha çox qalibiyyətin, zəfərimizin sevincini yaşadım. Anamın, atamın söhbətlərindən eşitmişdim Xankəndini. Həmişə xəyallarımda Xankəndini anamın-atamın xatirələri ilə canlandırmışam. Xankəndi şəhərinə qayıdanda bacılarım getdiyi bağçaya, 4 nömrəli məktəbə aparan yollarla addımladım. Onların uşaqlıq xatirələrindən danışdığı bu yollarda, böyürtkən kollarında sanki bacılarımın uşaqlığını gördüm”.

V.Abbasova deyir ki, doğma torpağa köçmək üçün günləri sayıb:”Hətta 10 il həyatımı sərf etdiyim işimi, vəzifəmi Gəncədə təhvil verib Xankəndi şəhərinə köçdüm. Dörd gün içərisində qərar verdim ki, Xankəndi şəhərinə köçəcəm, orada yaşayacam. Yaxın gələcəkdə bacılarım da buraya köçəcək. Ana yurdda yaşamaq sözlə ifadə edilməyəcək bir hissdir”.

Vəfa xanımın anası Rübabə Abbasova isə deyir ki, doğma torpağa köçən gün gözünün qarşısına buradan məcburi köçdükləri gün gəlib. “Biz necə getmişdik, necə qayıtdıq. Ermənı daşnaqları bizim avtobusu daş-qalaq etmişdilər. Köç ərəfəsində qucağımda körpə uşaq vardı. Orada ermənilər bizi çox incitdiyindən Xocalıya məcbur köç etdik. Şükür bu günə ki, biz yenidən evimizə qayıtdıq”.

Söhbətə müdaxilə edən Vəfa xanım deyir ki, çox təəssüf ki, atası bu xoş günü görə bilmədi:” Atam bazarda polis işləyib. 1991-də Xankəndi şəhərini məcburi tərk edib. Bizim ailə çoxuşaqlı olduğundan ermənilər bizi incidirdi. Atam bu günü görmək arzusu ilə dünyadan köçdü. Şükür ki, ailəsi onun arzuladığı günü övladları ilə gördü”.

Xankəndi şəhərinə köçən digər sakin isə Əli Muradovdur.

Əli Muradov qəzetimizə müsahibəsində bildirib ki, Xankəndini uşaqkən tərk edib.

“Biz Xankəndini tərk edəndə dörd uşaq, atam və anamla birgə idik. Amma valideynlərim məcburi köçkün həyatında rəhmətə getdilər, bu sevinci yaşaya bilmədilər. Xankəndinə köç mənim üçün sevincli gündür. Amma bir tərəfdən də kədərlənirəm ki, valideynlərim bu günü görmədi. Atam uzun illər dəmiryolunda çalışıb. Biz ağır məcburi köçkün həyatı yaşamışıq. Çadırlarda qalmışıq. Sağ olsun Nümayəndəlik bizə böyük dəstək oldular ki, şəraitimiz rahat olsun”.

Müsahibimiz deyir ki, azad Xankəndi şəhərində bu gün özü də, ailəsi də tam təhlükəsiz şəraitdə yaşayır: “O vaxt anamgil bizi ermənilərin əlindən mağazaya tək göndərə bilmirdilər ki, başımıza bir iş gələr. Biz bu torpaqda yaşasaq da, öz evimizdə təhlükə ilə üz-üzə idik. Amma indi balalarımız azad Xankəndində yaşayır. Burada yaşamaq üçün bütün infrastruktur qurulub. 4 nömrəli məktəb, bağça fəaliyyət göstərir. Tam şərait qurulub ki, biz burada rahat, təhlükəsiz yaşayaq. Buna görə Ali Baş Komandanımıza, ordumuza minnətdaram”.

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Bir neçə gün öncə Xankəndi şəhərinə ilk köç karvanı göndərildi. Respublikanın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış Xankəndi şəhərindən olan keçmiş məcburi köçkünlərdən ibarət 36 ailə (162 nəfər) doğma yurduna qayıtdı. Onların 35 ildən sonra Xankəndiyə qayıdışı əsl toy-bayram idi. Xankəndi şəhərinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Sakinlərə yeni mənzillərinin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi



altında işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Bu ərazilər qısa müddət ərzində yenidən dirçəldilir, müasir yaşayış məkanları, sosial infrastruktur obyektləri, yollar, məktəblər, səhiyyə və mədəniyyət müəssisələri bərpa və inşa olunur. Vurğulanıb ki, “Böyük Qayıdış” dövlət proqramı çərçivəsində məcburi köçkünlərin mərhələli şəkildə doğma torpaqlarına qayıdışı təmin edilir və bu proses dövlətin daim diqqət mərkəzindədir. Əsas məqsəd insanların təhlükəsiz, rahat və layiqli yaşayış şəraiti ilə təmin olunması, eyni zamanda bölgədə dayanıqlı iqtisadi və sosial həyatın formalaşdırılmasıdır. Səbuhi Qəhrəmanov ailələri doğma yurdlarına qayıtmaları münasibətilə təbrik edib.

Qeyd edək ki, Xankəndi şəhərinə ilk köç bölgədə həyatın bərpası və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətində mühüm mərhələ hesab olunur.

Xatırladaq ki, Xankəndi şəhəri və Kərkicahan qəsəbəsi 1991-ci ildə işğala məruz qalıb. 19-20 sentyabr 2023-cü ildə Azərbaycan ordusunun keçirdiyi lokal xarakterli antiterror əməliyyatı nəticəsində Azərbaycan əsgəri şəhərə nəzarəti bərpa edib. 15 oktyabr 2023-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını qaldırıb. 35 ildən sonra şəhərə həyat yenidən qayıdır, Xankəndidə bərpa və quruculuq işləri sürətlə davam etdirilir. Dövlət proqramı çərçivəsində ailələrin məskunlaşacağı mənzillər əsaslı şəkildə təmir edilib, bütün zəruri kommunal və sosial infrastrukturla təmin olunub. “Böyük Qayıdış” proqramı çərçivəsində həyata keçirilən köç prosesi bundan sonra da Xankəndi şəhərinə mərhələli şəkildə davam etdiriləcək.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## “Zəngəzur” elektrik ötürmə xəttinin çəkilməsinə başlanılıb

***Naxçıvan Muxtar Respublikasının ölkənin əsas elektrik enerji sistemi ilə birləşdirilməsi, eyni zamanda Azərbaycan-Türkiyə-Avropa beynəlxalq enerji dəhlizinin formalaşdırılması məqsədilə Zəngəzur xəttinin tikintisinə başlanılıb.***

”Unikal” xəbər verir ki, ölkə başçısının tapşırığına əsasən “AzerEnerji” tərəfindən Cəbrayıldan Ağbəndə qədər 74 km, paralel olaraq isə Naxçıvandan Ordubadın sərhədinədək 105 km uzunluğunda, ikidövrəli və 1000 meqavat yükötürmə qabiliyyətinə malik 330 kilovoltluq yüksək gərginlikli ötürmə xətti inşa olunur.

Araz çayı boyunca, bir sıra ərazilərdə isə dağlıq və qayalı massivlərin yarılmasından keçən xətt “AzərEnerji” tərəfindən son dərəcə mürəkkəb relyef və ağır iqlim şəraitində çəkilir.

Layihənin növbəti mərhələsində Zəngəzur dəhlizini keçməklə 44 km məsafədə əlavə ötürmə xətti inşa ediləcək və həmin xətt gələcəkdə Ağbənd və Ordubad istiqamətində çəkilən xəttə birləşdiriləcək. Eyni zamanda Naxçıvan şəhərində yeni 330 kV-luq yarımstansiya tikiləcək. Artıq bu məqsədlə 49 hektar torpaq sahəsi ayrılıb və mobilizasiya işlərinə start verilib.

Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizi layihəsinin davamı olaraq daha bir strateji mərhələnin icrası planlaşdırılır. Belə ki, 230 km məsafədə Naxçıvandan Türkiyəyə 400 kV-luq ötürmə xəttinin çəkilməsi və ölkə tarixində ilk dəfə olaraq 400 kV gərginlik sinfi üzrə çevirici yarımstansiyanın tikilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikasının ölkənin vahid enerjisisteminə tam inteqrasiyası, muxtar respublikanın tezlik tənzimlənməsində xarici ölkədən asılılığının aradan qaldırılması, həmçinin Avropa enerji bazarlarına çıxış imkanlarının yaradılması baxımından bu layihə strateji əhəmiyyət daşıyır və Azərbaycan tarixinin ən iri enerji layihələrindən biri kimi qiymətləndirilir.

04_27 IYUI-QARA.qxd 1/29/2026 8:35 PM Page 13





# Ödənilməyən cərimə məhkumun maaşından tutulacaq

***Cərimənin məcburi qaydada tutulması qaydası dəyişir. "Unikal" xəbər verir ki, bu, Cəzaların İcrası Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.***

Qüvvədə olan qanuna əsasən, Məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə cərimə növündə cəzanın icrası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada, yəni məhkumun xüsusi mülkiyyətdə olan əmlakına və ya ümumi mülkiyyətdə olan payına yönəldilməklə həyata keçirilir. Cərimənin tutulması o halda məhkumun əmək haqqına və ya başqa qazancına yönəldilir ki, onun əmlakı olmasın, yaxud bu əmlak cərimənin tamamilə ödənilməsi üçün kifayət etməsin.

Layihəyə əsasən, məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə cərimə növündə cəzanın icrası hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada icraya yönəldilməklə həyata keçirilir. Bu halda cərimə ilk növbədə məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldiləcək. Məhkumun əməkhaqqı və ya başqa qazancı olmadıqda, yaxud məhkumun əməkhaqqı və ya başqa qazancı cərimənin tamamilə ödənilməsi üçün kifayət etmədikdə cərimə məhkumun xüsusi mülkiyyətdə olan əmlakına və ya ümumi mülkiyyətdə olan payına yönəldiləcək və bu halda "İcra haqqında" qanunun tələbin borclunun əmlakına yönəldilməsi ilə bağlı müddəaları tətbiq olunacaq.

Qeyd edilib ki, Cəzaların İcrası Məcəlləsinin 24-cü maddəsinə əsasən məhkum tərəfindən cərimənin müəyyən edilmiş müddətdə ödənilməməsi hallarında mövcud mexanizmin, yəni əvvəlcə məhkumun xüsusi mülkiyyətdə olan əmlakına və ya ümumi mülkiyyətdə olan payına, yalnız əmlak olmadıqda və ya kifayət etmədikdə əmək haqqına və ya başqa qazancına yönəldilir. Qanunvericilikdə məsələnin bu cür tənzimlənməsi təcrübədə icra prosesini ləngidir, icra tədbirlərinin isə bəzən cərimənin məbləği ilə qeyri-mütənasib nəticələrə səbəb olduğu müşahidə olunur. Xüsusilə nisbətən kiçik məbləğli cərimələr üzrə yüksək dəyərli əmlaka həbs qoyulması və onun hərrac yolu ilə satışı həm vaxt itkisi, həm də əlavə prosedur xərcləri yaradır.

Cərimənin icrasında prioritet ardıcıllığın yenidən nəzərdən keçirilməsini, o cümlədən cərimənin ilk növbədə məhkumun əmək haqqına və ya başqa qazancına yönəldilməsini, icra prosesinin operativliyinin artırmasını və cərimə məbləğinə ekvivalent olmayan əmlaka həbs qoyulmasını və satış zərurətinin minimuma endirilməsini təmin etmək məqsədi ilə bu qanun layihəsi hazırlanıb.

# Naxçıvanda 4 milyon manatdan çox ƏDV məbləği geri qaytarılıb



***İndiyə qədər Naxçıvan Muxtar Respublikasında "ƏDV geri al" layihəsi çərçivəsində istehlakçılara 4,1 milyon manat ƏDV məbləği geri qaytarılıb.***

"Unikal" xəbər verir ki, bunu Naxçıvanın iqtisadiyyat naziri Kazım Hüseynəliyev ötən ilin yekunları ilə bağlı keçirilən mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, təkcə ötən il istehlakçılara qaytarılan məbləğ əvvəlki ilə nisbətən təxminən 25 % artaraq 1,8 milyon manat olub.

# Pensiyaçılara şad xəbər:
## Gələn həftə artımların məbləği bilinəcək

***"Qanunvericiliyə görə pensiyalar ildə bir dəfə artır və bu da növbəti ilin yanvarında olur. Əmək pensiyalarının hər il indeksləşdirilməsi "Əmək pensiyaları haqqında" qanunun tələbidir. Bu, vətəndaşın qanunla müəyyənləşdirilmiş şəkildə haqq etdiyi məsələdir".***

"Unikal" xəbər verir ki, bunu deputat Əli Məsimli deyib. Onun sözlərinə görə, qanunla müəyyənləşdirilmiş qaydada pensiyaların artırılması zamanı gəlib çatıb: "Fevral ayının birinci dekadası ərzində pensiyaların nə qədər artırılacağı barədə sərancam veriləcək. "Əmək pensiyaları haqqında" qanunun 29-cu maddəsinin 1-ci bəndinin tələblərinə görə, əmək pensiyasının sığorta gerçəkdən neçə faiz olacağı barədə konkret rəqəm gələn həftə, yəni fevral ayının əvvəllərində məlum olacaq. Dövlət Statistika Komitəsi 2025-ci il üzrə nominal əməkhaqqının orta illik artım tempini elan edən kimi, həmin göstəriciyə uyğun olaraq 2026-cı il yanvarın 1-dək təyin edilmiş bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılması barədə fevralın əvvəllərində xüsusi Prezident sərəncamı veriləcək".

Deputat bildirib ki, indeksləşdirmədən sonra ötən il pensiyaçıların yarıya qədərinin median pensiya səviyyəsində, yəni, 360 manat ətrafında aldığı pensiyalar təqribən 33 manat artıb 393 manata, 543 manat elan edilən orta pensiya ətrafında pensiya yaxın pensiya alacaq".

Ə.Məsimli qeyd edib ki, "Əmək pensiyaları haqqında" qanunun 29.1-1 maddəsinin tələblərinə görə, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə istehlak qiymətləri indeksinin, yəni, inflyasiyanın illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir:

"2025-ci ildə fərdi şəxsi hesablardakı pensiya kapitalları rəsmi inflyasiya göstəricisi kimi qeydə alınmış 2,2 faiz səviyyəsində indeksləşdirilərək artırılmışdı. Sözügedən qanuna əsasən, 2026-cı ildə sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı 2025-ci ilin rəsmi inflyasiya göstəricisi səviyyəsində in-



hissəsi ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilir. Bu o deməkdir ki, pensiyaların artımı Dövlət Statistika Komitəsi tərəfindən elan edilən əvvəlki il üzrə orta aylıq əmək haqqının artım tempinə uyğun olaraq həyata keçirilir. 2025-ci ildə əmək pensiyaları Dövlət Statistika Komitəsinin elan etdiyi 2024-cü ilin orta aylıq əməkhaqqı məbləğinin nominal artım göstəricisinə uyğun olaraq 8,1 faiz artırılmışdı. Həmin qayda ilə bu il də əmək pensiyaları bu dəfə 2025-ci ildə orta aylıq əməkhaqqının orta artım tempinə uyğun səviyyədə indeksləşdiriləcək. Hələlik bu artımın dəqiqləşdirilmiş son göstəricisi yoxdur. Dövlət Statistika Komitəsinin məlumatına görə, orta əməkhaqqı 2025-ci ilin yanvar-noyabr aylarında 2024-cü ilin yanvar-noyabr aylarına nisbətən 9,3 faiz artıb. Rəsmi açıqlamalarda hələlik 9-9,2 faiz arasında artım olacağı barədə fikirlər səsləndirilir. Artımın alanların pensiyası isə 50 manat ətrafında artıb 593 manata çatacağı gözlənilir: ""Əmək pensiyaları haqqında" qanunun tələbinə uyğun olaraq pensiya artımı əmək pensiyalarının hər üç növünə, yəni, yaşa görə, ailə başçısını itirməyə görə, eləcə də əlilliyə görə əmək pensiyası alanlara şamil ediləcək. Bu əsasda pensiya artımının 1,1 milyon pensiyaçını əhatə edəcəyi gözlənilir. Hələ 2025-ci il üzrə əməkhaqqının orta illik artım göstəricisi məlum olmadığından, pensiyaçılar bu ilin yanvar ayında da əvvəlki məbləğdə pensiya aldılar. Pensiyaçılar artan pensiyalarını yanvar ayının artımı da daxil olmaqla yanvar-fevral ayları üzrə artan məbləği birlikdə fevral ayında alacaqlar. Yəni, pensiyası 400 manat olan pensiyaçının pensiyası 37 manata yaxın artaraq 437 manata çatacaq. Amma o fevralda həm yanvar və həm də fevral ayının artmlarını birlikdə almaqla 474 manat alacaq. Mart ayından başlayaraq isə 437 manata deksləşdiriləcək. Bu rəqəm artıq məlumdur. 2026-cı ildə sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı 5,6 faiz səviyyəsində indeksləşdiriləcək. Hazırda 320 manat pensiya təminatı üçün minimum 46 080 manat pensiya kapitalı və ya 25 il iş stajı (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) tələb olunur. Fərdi hesabında minimum 46 080 manat pensiya kapitalı olan və minimum pensiya alan vətəndaşın vəsaiti bu il 2580 manat artırılıb 48 660 manata, fərdi hesabında 60 min manat olan pensiyaçının vəsiti- 3360 manat artırılaraq 63 360 manata çatacaq və s. Beləliklə, bu il əmək pensiyalarında artım 9 faiz ətrafında, vətəndaşların fərdi hesabında olan pensiya kapitalının artımı isə 5,6 faiz olacaq. Yanvar ayı üzrə pensiyalara edilmiş artımlar fevral ayının pensiyası ilə birlikdə ödəniləcək".

***Anar Kəlbiyev***

04_27 IYUI-QARA.qxd 1/29/2026 8:35 PM Page 14



# Elektron formada sübut hesab olunacaq məlumatlar müəyyənləşir



***Elektron sübutların toplanması prosesi tam hüquqi çərçivəyə salınır, məhkəməyədək icraatın və məhkəmə icraatının elektron qaydada aparılması proseduru müəyyənləşir.***

”Unikal” xəbər verir ki, bu, ”Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsində əksini tapıb.

Bildirilib ki, müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı cinayət mühakimə icraatının qarşısında yeni çağırışlar qoyub. Klassik cinayət-prosessual mexanizmlər informasiya-kommunikasiya vasitələrindən istifadə edilməklə törədilən və gizlədilən cinayətlərin aşkarlanmasında artıq yetərli effektivliyi təmin edə bilmir. Mövcud qanunvericilikdə elektron formada sübutların müstəqil sübut növü kimi tanınması, onların toplanması, saxlanılması və bütövlüyünün qorunması mexanizmlərində boşluqların olması, rəqəmsal mühitdə aparılan cinayət təqibinin hüquqi bazasının təkmilləşdirilməsini zəruri edib.

Həmçinin ”İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası” 2025-ci ilin 25 oktyabr tarixində Hanoy şəhərində ölkəmiz adından müvafiq bəyanatlar və qeyd-şərtlərlə imzalanıb. BMT Konvensiyası ölkəmiz tərəfindən ratifikasiya edildikdən sonra bu öhdəliklərin icrasının təmin edilməsi zərurəti yaranacaq.

Qanun layihəsinin də əsas məqsədi kibercinayətkarlığa qarşı mübarizə sahəsində yeni çağırışlara cavab vermək, qanunvericilikdə mövcud olan boşluqları aradan qaldırmaq, eləcə də müvafiq sahədə beynəlxalq müqavilələrin tələblərini daxili hüquq sisteminə tam inteqrasiya etməkdir. Belə bir tənzimləmə kibercinayətkarlığa qarşı həm milli, həm də beynəlxalq səviyyədə daha səmərəli mübarizə aparılmasına imkan verəcək.

Qanun layihəsində texnoloji tərəqqiyə uyğun olaraq köhnəlmiş ifadələr müasir terminlərlə əvəz edilir. Belə ki, Konvensiyanın tələblərinə müvafiq olaraq, qanunvericilikdəki ”kompüter sistemi” ifadəsi ”İKT sistemi”, ”kompüter məlumatları” isə ”elektron verilənlər” terminləri ilə əvəz edilir. Bu, smartfonlardan tutmuş bulud infrastrukturuna qədər bütün müasir vasitələrin hüquqi tənzimləmə dairəsinə daxil edilməsini təmin edir. Eyni zamanda, qanunvericiliyə ”trafik verilənləri”, ”abunəçi məlumatları”, ”məzmun verilənləri” və ”xidmət provayderi” kimi yeni hüquqi anlayışlar daxil edilir.

Cinayət-Prosessual Məcəlləsinə edilən əlavələr elektron sübutların toplanması prosesini tam hüquqi çərçivəyə salır. Buraya elektron verilənlərin əldə edilməsi, mühafizəsi və prosessual rəsmiləşdirilməsi qaydalarının müəyyən edilməsi, İKT sistemlərinə baxış, axtarış və götürmə tədbirlərinin hüquqi əsaslarının və hədlərinin dəqiqləşdirilməsi aiddir. Bu dəyişikliklər elektron sübutların etibarlılığını, yolverilənliyini və məhkəmədə qiymətləndirilməsinin şəffaflığını artırmağa xidmət edəcək.

Bundan başqa, layihəyə əsasən, CPM-ə ”Məhkəməyədək icraatın elektron qaydada aparılması” və ”Məhkəmə icraatının elektron qaydada aparılması” kimi yeni maddələr daxil edilərək həmin məsələlərin ətraflı tənzimlənməsi nəzərdə tutulur. Hazırda mövcud olan ”Cinayət mühakimə icraatının elektron qaydada aparılması” adlı maddənin isə mətni genişləndirilərək yeni versiyada təqdim olunmuşdur. Həmçinin, məhkəmə və prokurorluq arasında sənəd dövriyyəsinin ”Elektron məhkəmə” və ”Elektron prokurorluq” sistemləri vasitəsilə, gücləndirilmiş elektron imza ilə həyata keçirilməsi mexanizmi təsbit olunur.

Beynəlxalq konvensiyalardan irəli gələn normaların milli qanunvericiliyə bu şəkildə dəqiq və sistemli implementasiyası, ölkəmizin kibertəhlükəsizlik reytinqlərində mövqeyini yüksəldəcək və transmilli cinayətkarlıqla mübarizədə beynəlxalq tərəfdaşlarla əməkdaşlığı daha səmərəli edəcək.

Layihə hazırlanarkən Almaniya, ABŞ, Türkiyə, Böyük Britaniya, Niderland, Özbəkistan kimi ölkələrin qanunvericilik təcrübəsi yaxından öyrənilib. Qeyd olunan ölkələrdə elektron sübutların ayrıca hüquqi institut kimi formalaşması istintaqın effektivliyini və məhkəmə araşdırmasının şəffaflığını əhəmiyyətli dərəcədə artırıb.

# Qanunsuz tikililərin sənədləşdirilməsi üzrə göstəricilər açıqlandı

***Azərbaycan Prezidentinin ”Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında” Fərmanının icrası çərçivəsində ölkədə 60 928 ailə dövlət vəsaiti hesabına elektron çıxarışla təmin edilib.***



”Unikal” xəbər verir ki, bunu Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədri Nigar Alimova deyib. Onun sözlərinə görə, 413 423 ədəd dövlət aktı əsasında hüquq sahibi olan vətəndaşlar elektron çıxarışla təmin edilib: ”Prezidentin ”Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanının icrası çərçivəsində 23 587 qeyri-yaşayış binasının yerləşdiyi torpaq sahəsinə dair yer quruluşu planı tərtib edilərək aidiyyəti üzrə təqdim edilib”. Nigar Alimova bildirib ki, 4 602 qeyri-yaşayış binası üzərində mülkiyyət hüquqları qeydiyyata alınaraq hüquq sahibləri elektron çıxarışla təmin edilib. O əlavə edib ki, bu vaxta qədər həmin obyektlər özbaşına tikililər hesab olunub.



# Milli Kitabxanada Koha AKİS üzrə onlayn təlimlər davam edir

***Yanvar ayının 26-dan etibarən Milli Kitabxanada region kitabxanalarının əməkdaşları üçün Koha AKİS üzrə onlayn təlimlərə start verilib.***

Təlimlərdə Abşeron-Xızı, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Mərkəzi Aran, Qazax-Tovuz, Gəncə-Daşkəsən, Şərqi Zəngəzur, Qarabağ, Mil-Muğan, Şirvan-Salyan və Lənkəran-Astara Regional Mədəniyyət İdarələrinin tabeliyində fəaliyyət göstərən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin (MKS) əməkdaşları iştirak edirlər. Təlim proqramının 30 yanvar tarixində yekunlaşması nəzərdə tutulur. Proqram çərçivəsində iştirakçılara Koha kitabxana avtomatlaşdırma sisteminin yenilənmiş modulları üzrə ətraflı nəzəri məlumatlar təqdim olunur. Eyni zamanda ekran paylaşımı vasitəsilə real iş prosesinə uyğun praktiki əməliyyatlar nümayiş etdirilir. Təlimlər zamanı mütəxəssislərin gündəlik iş proseslərində qarşılaşdıqları aktual məsələlər müzakirə olunur, verilən suallar cavablandırılır və mövcud problemlərin həlli istiqamətində müvafiq izahlar verilir.

# 2025-ci ilin 9 ayında Yevlax şəhəri üzrə "Əmtəə bazarı haqqında" statistika

***2025-ci ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi 423332,7 min manat olmuş və keçən ilin müvafiq dövrü ilə müqayisədə müqayisəli qiymətlərlə 0,2 faiz azalmışdır.***

2025-ci ildə ölkə üzrə pərakəndə ticarət dövriyyəsində Yevlax rayon üzrə pərakəndə ticarət dövriyyəsi 0,91 faiz təşkil etmişdir.

Pərakəndə ticarət dövriyyəsinin quruluşunda ərzaq malları, içkilər və tütün məmulatlarının xüsusi çəkisi 60,6 faiz, yaxud 256444,5 min manat, qeyri-ərzaq mallarının xüsusi çəkisi 39,4 faiz, yaxud 166888,2 min manat olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında ticarət şəbəkəsindən rayonun hər bir sakini orta hesabla 2999,1 manat və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 121,1 manat çox istehlak malları almışdır.

2025-ci ilin yanvar-sentyabr aylarında hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən keçən ilin müvafiq dövrü ilə müqayisədə əhaliyə müqayisəli qiymətlərlə 0,5 faiz az istehlak malları satılmışdır.

2025-ci ilin hesabat dövründə pərakəndə satışın 9,6 faizini (40801,5 min manatını) rəsmi qeydiyyatdan keçmiş müəssisələr, 50,6 faizini, (214212,0 min manatını) bazar və yarmarkalar, 39,8 faizini, (168319,2 min manatını) isə fiziki şəxslər təşkil etmişdir.

Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən əhaliyə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15726,8 min manat çox istehlak malları satılmışdır.

2025-ci ilin yanvar-sentyabr aylarında topdansatış ticarət dövriyyəsi 9881,7 min manat təşkil edərək, əvvəlki ilin müvafiq dövrünə nisbətən 50,3 faiz və ya 3309,1 min manat çox olmuşdur.

2025-ci il oktyabr ayının 1-i tarixinə ticarət şəbəkə və anbarlarında 25142,4 min manatlıq mal ehtiyatları olmuşdur. Mal ehtiyatlarının 994,1 min manatı topdansatış, 24148,3 min manatı pərakəndə ticarət şəbəkələrin anbarlarında olmuşdur.

Pərakəndə mal ehtiyatlarının 2329,5 min manatı rəsmi qeydiyatdan keçmiş müəssisələrin, 21818,8 min manatı hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların şəbəkələrində olmuşdur.

***Hazırladı,***
***Yevlax Şəhər Statistika İdarəsinin***
***aparıcı məsləhətçisi***
***Mehriyyə Vəliyeva***

04_27 IYUl-QARA.qxd 1/29/2026 8:35 PM Page 15



## "Bəzən onun hərəkətlərini bəyənmirəm" - Melaniyadan Trampa



***ABŞ-nin birinci xanımı Melaniya Tramp həyat yoldaşı Donald Trampın rəqsi barədə fikirlərini bölüşüb.***

"Unikal" xəbər verir ki, o, bu barədə "Fox News"a danışıb. Melaniyanın sözlərinə görə, "müəyyən anlarda" o, Trampın rəqslərindən zövq alır.

"Onun uyğunsuz rəqslər etdiyi vaxtlar olub və mən ona bunu bəyənmədiyimi dedim", - birinci xanım ifadə edib.

O, əlavə edib ki, Amerika liderinin rəqsi insanlara "xoşbəxtlik və sevinc" gətirir və etiraf edib ki, özü də ərinin andiçmə mərasimində onun ən sevdiyi mahnılardan biri olan "YMCA" mahnısına rəqs edib.

Yanvarın əvvəlində Tramp Respublikaçı qanunvericilər qarşısında çıxışı zamanı Melaniyanın onun ictimai rəqslərindən nifrət etdiyini etiraf etmişdi. O, həyat yoldaşını zərif və incə adlandırmış və əlavə etmişdi ki, Melaniya onun hərəkətlərini "prezidentliyə yaraşmayan" adlandırıb.

***Gülayə Mecid***

## "ABŞ Ukraynaya dəstək göstərmir" - Kallas



***"ABŞ bir ildən çoxdur ki, Ukraynaya dəstək göstərmir".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Avropa Birliyinin diplomatiya rəhbəri Kaya Kallas deyib. Onun sözlərinə görə, avropalıların diqqəti məhz buna yönəlib: "Artıq görürük ki, ABŞ bir ildən çoxdur ki, Ukraynanı dəstəkləmir; bunu edən avropalılardır" .

Kallas Ukrayna münaqişəsinin həlli məsələsində hər hansı bir razılaşmanın işləməsi üçün Avropanın iştirakının zəruri olduğu fikrini bildirib.

ABŞ dövlət katibi Marko Rubio daha əvvəl bildirib ki, ABŞ-nin Avropa müttəfiqləri müdafiə qabiliyyətlərinə kifayət qədər sərmayə qoymayıblar və Amerikanın dəstəyi olmadan Ukraynaya təhlükəsizlik zəmanəti verə bilmirlər.

***Gülayə Mecid***

## Kreml İranla bağlı çağırış etdi - "Təmkinli olun!"



***Kreml İran ətrafındakı vəziyyətin həllində təmkinli olmağa və güc tətbiqindən imtina etməyə çağırır.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov ABŞ prezidenti Donald Trampın İslam Respublikası ilə bağlı açıqlamalarını şərh edərkən deyib.

"Biz bütün tərəfləri təmkinli olmağa və məsələni həll etmək üçün hər hansı bir güc metodundan istifadə etməkdən çəkinməyə çağırırıq", - deyə o bildirib.

Bundan əvvəl Ağ Ev rəhbəri böyük Amerika qüvvələrinin İrana doğru hərəkət etdiyini bildirmişdi.

***Gülayə Mecid***

## Ərdoğan üçtərəfli sammit təklif etdi

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Donald Trampa İranla bağlı üçtərəfli sammit keçirməyi təklif edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin "Hürriyet" qəzeti məlumat yayıb.

Məlumata görə, Ərdoğan bu təklifi yanvarın 27-də ABŞ prezidenti ilə telefon danışığı zamanı açıqlayıb. Türkiyə lideri ABŞ, İran və Türkiyə arasında, ehtimal ki, videokonfrans vasitəsilə zirvə görüşünün keçirilməsinə çağırıb.

Qeyd olunub ki, Tramp Ərdoğanın təklifinə müsbət yanaşıb.

***Ağarza Elçinoğlu***

# "Qarabağ söhbətini birdəfəlik bağlamalıyıq" - Paşinyan

***"Mən Azərbaycan Prezidentinin bir sıra qərarlarından məmnun olduğumu bildirmişəm. Taxıl və dizel yanacağı Azərbaycan ərazisindən Ermənistana gəlir və yollar açılır. Düşünmürəm ki, buna görə Azərbaycanı tənqid etməliyik".***



"Unikal" xəbər verir ki, bunu Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan jurnalistlərlə keçirdiyi brifinqdə bildirib.

"Yeni il müraciətimdə dedim ki, Qarabağ bizim deyil, onun bizim olması barədə söhbətlər yersizdir. Bu, geosiyasi tələdəki kiminsə söhbətidir.

Düşünürəm ki, bu söhbəti birdəfəlik bağlamalıyıq. Çünki Ermənistan və Azərbaycan Alma-Ata Bəyannaməsinə əsaslanaraq bir-birinin ərazi bütövlüyünü və suverenliyini, siyasi müstəqilliyini tanımaq barədə razılığa gəliblər və bu mövzu mənim üçün bağlıdır. Həmçinin Ermənistan xalqına birbaşa və açıq şəkildə bildirdim ki, Qarabağ hərəkatı davam etməməlidir. Mən Ermənistan Respublikasının Baş naziri olaraq bu xətti qəbul edirəm və bu xətti davam etdirəcəyəm. Vətəndaşlar mənim yanıldığımı, bu siyasətlə razılaşmadığımı düşünürlərsə, onları inqilab etməyə çağırıram. Düşünürəm ki, heç bir ölkədə xalqı inqilab etməyə çağıran baş nazir olmayıb. Xalq inqilab etmədiyinə görə biz bu siyasəti davam etdiririk, - deyə o qeyd edib.

***Ağarza Elçinoğlu***

# "İrana qarşı əməliyyat Venesueladakından daha çətin olacaq" - Tramp

***ABŞ Prezidenti Donald Tramp İrana qarşı hərbi əməliyyatın Venesueladakından daha çətin olacağını bildirib.***



"Unikal" xəbər verir ki, bu barədə CNN telekanalı mənbələrə istinadən yazır.

Qeyd olunur ki, Tehranın hərbi imkanları səbəbindən İranla bağlı vəziyyət ABŞ üçün mürəkkəbdir. Kanalın məlumatına görə, İran rəsmiləri amerikalılarla danışıqlar aparmayıb, Venesuela rəsmiləri isə Karakasdakı əməliyyatdan əvvəl Tramp administrasiyası ilə əlaqə saxlayıblar. Bundan əvvəl Tramp böyük Amerika qüvvələrinin İrana doğru hərəkət etdiyini bildirmişdi.

***Gülayə Mecid***

# "Rusiyadan silahları ikiqat ucuz alırdıq" - Köçəryan

***"Bizim başqa yerlərdən silah almaqda heç vaxt problemimiz olmayıb".***

"Unikal" xəbər verir ki, bunu Ermənistan Respublikasının ikinci prezidenti Robert Köçəryan deyib.

O, baş nazir Nikol Paşinyanın KTMT üzvlüyünün digər mənbələrdən silah alınmasına mane olduğu barədə açıqlamasına belə reaksiya verib: "Sadəcə olaraq, Rusiya ilə qiymət baxımından elə endirimlərimiz var idi ki, gedib eyni silahı ikiqat ucuz alırdıq. Baha olan başqa yerdən almaq axmaqlıq olardı. Bununla yanaşı, həmin silahın saxlanması ilə nə etmək, "sursat dəstini" necə gətirmək barədə suallar yaranırdı. Bütün məsələlərdə ciddi problemlər yaranırdı. Belə bir termin var: "silah zooparkı". Bu, olduqca problemlidir, buna görə də bir çox ölkələrin böyük ölkələrdən bir əsas tərəfdaşı var və ordunu həmin ölkənin silahları ilə doldururlar".

***Ağarza Elçinoğlu***



# Almaniya kansleri Putinə qarşı çıxdı

***Almaniya kansleri Fridrix Merts Ukraynadakı münaqişə ilə bağlı Rusiya prezidenti Vladimir Putinlə birbaşa danışıqlar çağırışlarını rədd edib.***

"Unikal" xəbər verir ki, bu barədə BILD nəşri məlumat dərc edib. Qəzet kanslerdən sitat gətirib: "Danışıqlar ilk növbədə Ukrayna və Rusiya arasında lazımdır. Biz burada vasitəçi kimi çıxış etmirik. Almaniya tərəflər arasında mövcud danışıqları dəstəkləyir və onların mümkün qədər tez başa çatacağına ümid edir".

Bu arada, SPD parlament qrupunun xarici siyasət üzrə nümayəndəsi Adis Axmetoviç Almaniya kansleri Fridrix Merts və Rusiya prezidenti Vladimir Putin arasında birbaşa danışıqlara çağırıb.

Onun sözlərinə görə, danışıqlar prosesində indiyə qədər "az irəliləyiş" əldə edilib və avropalılar danışıqlar masasında yoxdur.

***Gülayə Mecid***

04_27 IYUl-QARA.qxd 1/29/2026 8:35 PM Page 16



# "Məqsəd maksimum nəticə olacaq" - Qurbanovdan PSJ və "Nyukasl"la bağlı açıqlama



***Çempionlar Liqasının pley-off mərhələsinə vəsiqə qazanmaqla Azərbaycan futbolu üçün çox önəmli uğura imza atdıq.***

"Unikal" xəbər verir ki, bu sözləri "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma mərasimi zamanı jurnalistlərə açıqlamasında deyib.

Mütəxəssis bu uğura nail olmaq üçün çox əziyyət çəkdiklərini söyləyib: "İkinci dəfə idi turnirin əsas mərhələsində çıxış edirdik. Bu il oyunların sayı daha çox oldu. Yaxşı nəticələr əldə edildi. Bu, futbolumuz üçün vacib idi. Xalqımızı təbrik edirəm".

O, növbəti raunddakı potensial rəqibləri - "Nyukasl" və PSJ barədə də fikirlərini bölüşüb: "Əsas məqsəd maksimum nəticə göstərmək olacaq və bütün klublar bunun üçün çalışacaq. Bu mərhələdə heç bir rəqibi bir-birindən ayırmaq olmaz. Bəlkə bu gün PSJ daha çətin rəqib hesab edilə bilər. Amma İngiltərə klublarının da göstərdiyi oyun hamıya bəllidir. Onların gücünü bilirik. Daha yaxşı idman formasında olan komanda yüksək nəticə əldə edəcək".

Qeyd edək ki, "Qarabağ" liqa mərhələsinin son turunda İngiltərədə "Liverpul"a 0:6 hesabı ilə uduzub. Böyükhesablı məğlubiyyətə baxmayaraq, turnir cədvəlini 10 xalla 22-ci pillədə başa vuran "Qarabağ" növbəti raunda vəsiqə qazanıb. Bununla da "köhlən atlar" Çempionlar Liqasında pley-off mərhələsinə yüksələn ilk Azərbaycan klubu olub.

# "Qarabağ" 2500, "Neftçi" 2000 manat cərimələndi

***AFFA İntizam Komitəsi "Qarabağ" klubunu 2500, "Neftçi"ni 2000 manat cərimələyib.***

"Unikal" xəbər verir ki, buna Misli Premyer Liqasının XVII turunda yaşananlar səbəb olub.

Ağdam təmsilçisi "Kəpəz"lə qarşılaşmadan sonra meydana kənar şəxsin daxil olması ucbatında ziyana düşüb.

Bakı klubu isə "Zirə" ilə görüşdə oyun günü planı pozulduğu üçün cərimələnib.



Bundan əlavə, "İmişli" "Araz-Naxçıvan"la matçda 6 nəfər sarı vərəqə aldığı üçün 700 manat ödəməli olacaq. "Araz-Naxçıvan"ın dörd futbolçusu sözügedən oyunda sarı vərəqə aldığından klubu 700 manat ziyana salıblar.

"Sabah"da isə "Karvan-Yevlax"la qarşılaşmada beş nəfər eyni halla üzləşib, "bayquşlar"a 700 manat cərimə təbiq olunub.

# ÇL-nin Liqa mərhələsinin nəticələri

***UEFA Çempionlar Liqasında Liqa mərhələsinə yekun vurulub.***

"Unikal" xəbər verir ki, VIII turun bütün oyunları eyni gündə baş tutub. "Arsenal", "Bavariya", "Liverpul", "Tottenhem", "Barselona", "Çelsi", "Mançester Siti" və "Sportinq" 1/8 final mərhələsində çıxış edəcəklər.

"Qarabağ"la yanaşı, "Real Madrid", "İnter", PSJ, "Nyukasl", "Yuventus", "Atletiko Madrid", "Atalanta", "Bayer Leverkuzen", "Borussiya", "Olimpiakos", "Qalatasaray", "Brügge", "Budyo-Qlimt" və "Benfika" pley-off mərhələsində mübarizə aparacaq.




**UEFA Çempionlar Liqası**
**Liqa mərhələsi VIII tur**

00:00. PSJ (Fransa) - "Nyukasl" (İngiltərə) - 1:1

00:00. "Mançester Siti" (İngiltərə) - "Qalatasaray" (Türkiyə) - 2:0

00:00. "Liverpul" (İngiltərə) - "Qarabağ" (Azərbaycan) - 6:0

00:00. "Borussiya" (Dortmund, Almaniya) - "İnter" (İtaliya) - 0:2.

00:00. "Barselona" (İspaniya) - "Kopenhagen" (Danimarka) - 4:1

00:00. "Arsenal" (İngiltərə) - "Kayrat" (Qazaxıstan) - 3:2

00:00. "Bayer Leverkuzen" (Almaniya) - "Vilyarreal" (İspaniya) - 3:0

00:00. "Atletiko Madrid" (İspaniya) - "Budyo-Qlimt" (Norveç) - 1:2

00:00. "Benfika" (Portuqaliya) - "Real Madrid" (İspaniya) - 4:2

00:00. "Ayntraxt" (Frankfurt, Almaniya) - "Tottenhem" (İngiltərə) - 0:2

00:00. "Brügge" (Belçika) - "Marsel" (Fransa) - 3:0

00:00. PSV (Niderland) - "Bavariya" (Almaniya) -1:2

00:00. "Ayaks" (Niderland) - "Olimpiakos" (Yunanıstan) -1:2

00:00. "Napoli" (İtaliya) - "Çelsi" (İngiltərə) - 2:3

00:00. "Monako" (Fransa) - "Yuventus" (İtaliya) - 0:0

00:00. "Yunion" (Belçika) - "Atalanta" (İtaliya) - 1:0

00:00. "Atletik" (İspaniya) - "Sportinq" (Portuqaliya) - 2:3

00:00. "Pafos" (Kipr) - "Slaviya" (Çexiya) - 4:1.

# ""Liverpul"la oyun bizim üçün yaxşı dərs olacaq" - Bəhlul Mustafazadə



***""Liverpul"la oyun bizim üçün yaxşı dərs olacaq. Ümid edirəm ki, bunun xeyrini gələcəkdə görəcəyik"***

"Unikal" xəbər verir ki, bunu "Qarabağ"ın müdafiəçisi Bəhlul Mustafazadə jurnalistlərə açıqlamasında deyib.

O, məğlubiyyət yaşadıqları üçün təəssüf hissi keçirdiklərini bildirib: "Ümumilikdə yaxşı mövsüm keçirdik. Pley-offa vəsiqə qazandıq. Yolumuza davam edirik".

Futbolçu komandanın pley-offdakı potensial rəqiblərini də dəyərləndirib: "Nyukasl"ın bizə daha uyğun rəqib olduğunu düşünürəm. PSJ-nin gücü hamıya məlumdur. Hər bir halda işimiz çətin görünür".

# AFFA iki komandanı texniki məğlubiyyətlə cəzalandırdı

***AFFA iki komandanı texniki məğlubiyyətlə cəzalandırıb.***

"Unikal" xəbər verir ki, bu barədə qurumun İntizam Komitəsinin iclasında qərar qəbul olunub.

AFFA Region Liqasında keçirilməli olan "Bakı" TFK - "Xan Çinar" qarşılaşması birincilərin təyin olunan vaxtda meydanda olmaması səbəbindən baş tutmadığı üçün meydan sahiblərinə 0:3 hesablı texniki məğlubiyyət verilib.

AFFA U-14 Liqasında baş tutan "Qaradağ Lökbatan" - MO-İK PFK oyununda isə meydan sahiblərinin heyətində protokolda adı qeyd edilməyən futbolçu iştirak etdiyi üçün klub 0:3 hesablı texniki məğlubiyyətlə cəzalandırılıb.

# "Atana de, oyunçu alsın" - Azarkeşdən Musa Qurbanlıya

***UEFA Çempionlar Liqasının Liqa mərhələsinin sonuncu turu çərçivəsində keçirilən "Liverpul" - "Qarabağ" matçında maraqlı anlar yaşanıb.***

"Unikal"ın məlumatına görə, "Enfild" stadionunda baş tutan oyunda azarkeşlər arasında matçı izləyən həmyerlimiz "Qarabağ"ın hücumçusu, baş məşqçi Qurban Qurbanovun oğlu Musa Qurbanlıya səslənib.

O, komandaya yeni transferlərin edilməsini istədiyini bildirib: "Musa, atana de, oyunçu alsın. Başqana de, pul xərcləsin, transfer etsin", - deyə azarkeş əlavə edib.

Qeyd edək ki, matç "Liverpul"un 6:0 hesablı qələbəsi ilə yekunlaşıb. Təmsilçimiz "Qarabağ" isə Çempionlar Liqasında növbəti mərhələyə yüksəlib.

***Murad İbrahimli***

# Elxan Abdullayev: Azərbaycan futbolu adına yeni tarix yazıldı

***Bir məğlubiyyət "Qarabağ"ın uğuruna kölgə sala bilməz. Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycanın 19 yaşadək futbolçulardan ibarət milli komandasının baş məşqçisi Elxan Abdullayev Ağdam klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsinin sonuncu - VIII turunda İngiltərənin "Liverpul" komandasına məğlub olduğu oyun barədə danışarkən deyib.***

O, Qurban Qurbanovun komandasının Avropadakı nəticəsinə görə qürur duyduğunu bildirib: "Heç kim komadanın "Liverpul"a məğlubiyyətini qabarda bilməz. Nəticəmiz möhtəşəmdir. Bura gəlmək böyük güc tələb edir. Azərbaycan futbolu adına yeni tarix yazıldı. Bütün komandaya təşəkkür edirəm".

Mütəxəssis Ağdam klubunun pley-off mərhələsindəki potensial rəqibləri barədə də danışıb: "PSJ və "Nyukasl" nüfuzlu komandalardır. İnanın ki, bundan sonra alınacaq məğlubiyyət mənə təsir etməyəcək. Çünki "Qarabağ" böyük tarix yazıb və hər kəsi xoşbəxt edib. Bizim üçün gələcək rəqibin də fərqi yoxdur. Mənə görə, Azərbaycan çempionu nəticədən asılı olmayaraq, missiyasını uğurla tamamlayacaq".

Qeyd edək ki, "Qarabağ"ın pley-off mərhələsindəki rəqibi yanvarın 30-da keçiriləcək püşkatma mərasimində bəlli olacaq.

04_27 IYUl-QARA.qxd 1/29/2026 8:34 PM Page 2



# Rəqsanə efirdə ağladı: "Məndən nə istəyirsiniz?"




***Rəqsanə İsmayılova efirdə göz yaşı töküb.***

ARB TV-də yayımlanan "Günə Uğurla" verilişində Rəqsanə İsmayılova fotosessiya qalmaqalı ilə bağlı açıqlama verib: "Gündəmi zəbt edən məsələ ilə bağlı açıqlama vermək istəyirəm. Qeyd edim ki, etdirdiyim fotosessiya konkret bir layihə üçün nəzərdə tutulmuşdu. Sözügedən çəkiliş nə gündəlik geyim, nə də toy-nişan məqsədi daşıyırdı. Buna baxmayaraq, məsələ sosial müzakirələrdə fərqli təqdim olunaraq qınaq obyektinə çevrildim. Haqqımda danışan jurnalisti əvvəllər tanımırdım, sonradan tanıdım. Məni müzakirə edə bilərdi, lakin həyat yoldaşım haqqında danışmaq düzgün deyildi. Bildirmək istəyirəm ki, mən heç vaxt heç kimin ölüsünə sataşmamışam, heç kimə qarşı hörmətsizlik etməmişəm. Düzdür, bəzi ifadələri işlətməməli idim, lakin bu, mənim ailə üzvlərim barədə açıqlama verilməsinə əsas ola bilməz. Sözügedən fikirlər ailəmdə ciddi narahatlığa səbəb olub".

# "O, məni hər zaman ərimlə görüb, boşanma barədə yazmamalı idi" - Aşıq Zülfiyyə

***Aşıq Zülfiyyə müğənni Rəvan Qarayevin "Günə Uğurla" verilişində ünvanladığı şəxsi sualla bağlı açıqlama verib.***

Sənətçi "Həyat yoldaşınızla boşanma həddinə çatmısınız?" sualını uyğunsuz hesab etdiyini bildirib.

Aşıq Zülfiyyə qeyd edib ki, Rəvan Qarayev bu sualı verməklə ona qarşı səhv edib və belə mövzu efir üçün uyğun olmayıb. Onun sözlərinə görə, sual təəccübləndirmək məqsədi daşıyıb: "Rəvan mənə səhv etdi, bu sualı verməməli idi. Yəqin ki, diqqət çəkmək üçün səsləndirib. Axı o məni hər yerdə həyat yoldaşımla birlikdə görüb".

Sənətçi ailə həyatı ilə bağlı yayılan söz-söhbətlərə də aydınlıq gətirib. O bildirib ki, həyat yoldaşı ilə heç vaxt ciddi küsülü olmayıblar.



Yalnız bir dəfə oğulları ilə bağlı məsələ səbəbindən 3 gün aralarında inciklik yaşanıb.

Aşıq Zülfiyyənin bu açıqlaması sosial şəbəkələrdə də müzakirələrə səbəb olub.

# "Məclislərdə atama verilən çayı 1-ci özüm içib yoxlayıram"



***Tacir Şahmalıoğlu özü kimi müğənni olan oğlu Şahmalı ilə birlikdə efirlərin birində qonaq olub.***

Veriliş zamanı sənətçi keçmişdə ciddi sağlamlıq problemi ilə üzləşdiyini açıqlayıb. Tacir Şahmalıoğlu bir dövr səsinin batması təhlükəsi ilə üz-üzə qaldığını və bu səbəbdən çətin günlər yaşadığını etiraf edib.

Mövzu ilə bağlı oğlu Şahmalı da diqqətçəkən açıqlama verib. O, atasına qarşı xüsusi həssaslıq göstərdiyini bildirib: "Məclislərdə atama verilən çayı əvvəlcə özüm içib yoxlayıram. Bu, mənim borcumdur. Atama görə səsimi fəda edərəm".

Şahmalının bu sözləri studiyada maraqlı anlara səbəb olub. Ata-oğulun səmimi münasibəti və qarşılıqlı dəstəyi izləyicilər tərəfindən böyük rəğbətlə qarşılanıb, açıqlamalar sosial şəbəkələrdə də geniş müzakirə olunub.



# "O, musiqi aləmi üçün bir kompasdır"

***Müğənni Lətifə Xalq artisti Aygün Kazımovanın "Ə devuşka vostoçnaə" mahnısını oxuyub.***

Sənətçinin ifası Kazımovanın "Best of Aygun 2" albomunda yer alacaq.

Lətifə ifasını ilk dəfə Pop kraliçanın ad günündə ifa edib. O, həmin görüntüləri paylaşaraq bunları yazıb: "Aygün Kazımova - sadəcə səs deyil. O, işıqdır. O, musiqi aləmi üçün bir kompasdır - yolu göstərən, istiqamət verən, ruhu azdırmayan. Bəzən ulduz kimi parlayır, bəzən günəş kimi isidir, bəzən isə ay kimi sakitcə yolu işıqlandırır. O, Divadır! Onun varlığı özü bir məktəbdir, adı isə artıq bir dövrün imzasıdır".

# "Hər il belə təklif alıram" - Aysel Teymurzadə

***12 il fasilədən sonra səhnəyə qayıdan müğənni Aysel Teymurzadə "Avroviziya"dan təklif aldığını deyib.***



Bu haqda ifaçı Axşam.az-a açıqlamasında danışıb. O bildirib ki, son bir neçə ildir hər dəfə ona Azərbaycanı müsabiqədə təmsil etmək təklifi gəlir: "Avroviziya"ya yenidən getmək təklifləri çox alıram. Hətta demək olar ki, hər il bu təklif mənə gəlir. Getmirəm. Bəzi səbəblərim var. Yəqin sizlər də bunu bilirsiniz. Bəlkə, bir gün gedərəm. Hələ vaxtı olduğunu hiss etmirəm".

Qeyd edək ki, Aysel məşhur müğənni Araşla birlikdə 2009-cu ildə ölkəmizi "Avroviziya" müsabiqəsində təmsil edib. Onlar "Always" mahnısı ilə üçüncü yerdə qərarlaşıblar.

# "Avroviziya 2026" müsabiqəsinin aparıcıları məlum oldu

***"Avroviziya 2026" mahnı müsabiqəsini Viktoriya Svarovski və Maykl Ostrovski aparacaq.***

"Unikal" xəbər verir ki, bu barədə "Avroviziya"nın rəsmi saytı məlumat yayıb.

Bildirilib ki, Viktoriya Svarovski və Maykl Ostrovski 70-ci "Avroviziya" Mahnı Müsabiqəsinin aparıcıları olacaqlar.

Qeyd edək ki, 70-ci "Avroviziya" Mahnı Müsabiqəsinin yarımfinalları 12 və 14 may tarixlərində, böyük final isə 16 mayda Avstriyada yerləşən "Wiener Stadthalle" arenasında keçiriləcək.